# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan-Ermənistan nəqliyyat əlaqələrinin bərpası nə vəd edir?



15

## Bizi möhkəm dostluq və qardaşlıq münasibətləri birləşdirir!



2

SƏS
№ 206 (7374)
8 noyabr 2025-ci il.
Qiyməti 60 qəpik

# Zəfər salnaməmiz!



3

### "Şuşanın azad edilməsi müharibənin qırılma nöqtəsi oldu"




9

### Bayram günlərində ictimai nəqliyyatın iş qrafikində dəyişiklik olacaq?



7

### Ağac insanlar, kök insanlar…



6

## DİQQƏT! Süni intellektdən bu mövzuları soruşmayın




16

## 44 gün və 23 saata bütövləşən Azərbaycan



5

# Bizi möhkəm dostluq və qardaşlıq münasibətləri birləşdirir!





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 7-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifl ə məhdud tərkibdə görüşü olub. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi qarşıladı. Dövlətimizin başçısı və Pakistanın Baş naziri birgə foto çəkdirdilər.***

## *Prezident İlham Əliyevin Pakistanın Baş naziri ilə məhdud tərkibdə görüşü olub*



Görüşdə dövlətimizin başçısı Vətən müharibəsində şanlı Qələbənin beşinci ildönümü münasibətilə sabah Bakıda keçiriləcək hərbi paradda iştiraka görə Məhəmməd Şahbaz Şərifə təşəkkürünü bildirdi, bunu ölkələrimiz arasında qardaşlığın nümunəsi kimi qiymətləndirdi.

Parada dəvətə görə minnətdarlığını bildirən Pakistanın Baş naziri burada iştirak etməkdən məmnunluğunu vurğuladı. Qonaq Prezident İlham Əliyevi və xalqımızı möhtəşəm Zəfərimizin beşinci ildönümü münasibətilə təbrik edərək, paytaxt İslamabadın Azərbaycanın Qələbəsi şərəfinə ölkəmizin üçrəngli bayrağı ilə bəzədildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü ifadə etdi. Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən qardaşlıq əlaqələrinin daha da inkişaf etdiyi bildirildi, Azərbaycan və Pakistanın beynəlxalq təşkilatlarda bir-birinə göstərdikləri qarşılıqlı dəstəyə toxunuldu. İkitərəfli ticarət dövriyyəsində artım məmnunluqla vurğulanaraq, siyasi münasibətlərimizin ruhuna uyğun olaraq iqtisadi-ticari əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Azərbaycan tərəfindən Pakistandan idxal olunan düyüyə və 15 adda digər məhsula güzəştli ticarət tariflərinin tətbiqinin iqtisadi-ticari əlaqələrin inkişafında mühüm amil olduğu bildirildi.

Bu ilin birinci yarısında Hökumətlərarası Kommisiyanın iclasının uğurla keçirildiyi xatırlandı, hərbi və hərbi-texniki sahədə əməkdaşlıq məsələləri müzakirə edildi. Hökumət nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin tezliklə qarşılıqlı səfərlər həyata keçirməsi ilə bağlı razılıq əldə olundu.

İşğaldan azad olunmuş ərazilərimizdə icra edilən bərpa və quruculuq işlərində Pakistan şirkətlərinin iştirakı ilə bağlı fikir mübadiləsi aparıldı. Görüşdə ikitərəfli münasibələrimizin perspektivləri müzakirə edildi. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif birgə nahar ediblər.

# “Münasibətlərimiz strateji tərəfdaşlıq xarakteri daşıyır”

## *Prezident İlham Əliyev Slovakiya Baş nazirinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Prezident İlham Əliyev noyabrın 7-də Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Slovakiya Baş nazirinin müavini və müdafiə naziri Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə dövlətimizin başçısını təbrik edərək, bununla bağlı keçiriləcək hərbi parada dəvətə görə təşəkkürünü bildirdi. Qonaq, həmçinin Slovakiyanın Baş naziri Robert Fitsonun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Slovakiyanın Baş nazirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Robert Kalinakın rəhbərlik etdiyi nümayəndə heyətinin sabah Bakıda keçiriləcək Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda iştirakını yüksək qiymətləndirdi.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı ABŞ Prezidentinin iştirakı ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması məqsədilə imzalanmış sənədlərin tarixi əhəmiyyətinə toxunaraq, bunun regionda davamlı sülhün təmin edilməsində rolunu vurğuladı. Robert Kalinak Prezident İlham Əliyevin Slovakiyaya səfərini məmnunluqla gözlədiklərini qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Slovakiya arasında qarşılıqlı anlaşma və dəstəyə əsaslanan ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bildirildi, əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən hərbi və hərbi-sənaye sahələrində genişləndirilməsi üçün imkanların olduğu diqqətə çatdırıldı. Həmçinin Slovakiyanın Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əlaqələrinin genişləndirilməsinə göstərdiyi dəstəyə toxunuldu.



# Zəfər salnaməmiz!

## *Bu gün 8 Noyabr Zəfər Gününün beşinci ildönümüdür*

***Bu gün Azərbaycan möhtəşəm tarixi gününün - 8 Noyabr Zəfər Gününün beşinci ildönümünü qeyd edir. Ermənistanın 30 ilə yaxın davam etmiş hərbi təcavüzünə son qoyulması böyük salnamə tariximizdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun torpaqlarımızı azad etməsi Zəfər tariximizi yazdı, həm də bu qələbə beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsi idi.***

BMT Təhlükəsizlik Şurasının on illərlə kağız üzərində qalmış qətnamələrini Azərbaycan icra etmiş oldu. "Prezident kimi 2003-cü ildən bu günə qədər bütün addımlarım Azərbaycanın gücləndirilməsinə yönəldilmişdir. Vətən müharibəsinə qədər bütün addımlarım bir amala xidmət edirdi ki, biz torpaqlarımızı azad edək, düşməni torpağımızdan qovaq və biz buna nail olduq." – deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir. İllərlə görülən işlər, həyata keçirilən tədbirlər artıq öz sözünü demişdir. 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının müntəzəm xarakter alması İkinci Qarabağ müharibəsinin başlanmasına səbəb oldu.

Dövlət başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevdən "Hücum!" əmrini alan Azərbaycan Ordusu qələbə əzmi ilə irəlilədi. 200 ildən çox davam edən etnik təmizləmə, soyqırımı siyasətini həyata keçirmiş, xalqımız tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş insanların qisası döyüş meydanında alınırdı. Hər gün müharibənin getdiyi ağır döyüşlərin nəticəsində qələbə soraqları alırdıq: işğaldan azad olunan kənd, qəsəbə və şəhərlər.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı və bu mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası idi. İmzalanmış üçtərəfli Bəyanatla ölkəmizin qazandığı tarixi Qələbə bir daha təsdiqini tapdı. Ermənistan məğlubiyyət sənədinə imza ataraq, qısa zaman kəsiyində digər şəhər və rayonlarımızdan çıxması barədə öhdəlik götürdü. Beləliklə, uzun illər işğal altında qalan Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan Azərbaycana təhvil verildi.

Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu. "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı", - deyə Prezident bildirmişdir.

2020-ci ilin noyabrın 8-də Şəhidlər Xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan edərək: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! ... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", - deyərək qələbəmizi milyonlarla insana çatdırmış oldu. Bəli, bu Zəfərin qazanılmasında ötən müddət ərzində həm ordu quruculuğu sahəsində, həm diplomatiya cəbhəsində görülən işlərin, eyni zamanda beynəlxalq informasiya müstəvisində Azərbaycan reallıqlarının sistemli və məqsədyönlü şəkildə təbliği rol oynamışdır.

Prezident İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsində ordumuza göstərilən diqqət sayəsində Silahlı Qüvvələrimiz müasir silah-sursat, döyüş texnikası ilə təchiz olunması bizi Zəfərə doğru aparırdı. Azərbaycan əsgəri yalnız öz gücü və qüvvəsinə güvənərək düşməni işğal olunmuş torpaqlardan qovmaqla ərazi bütövlüyümüzü bərpa etməyə qadir olduqlarını əzmkarlıqla nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz ən peşəkar və döyüş ruhlu Ordu kimi tarixə adını həkk etdi. Azərbaycan ordusundan fərari olmadı. "44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi" - deyə Prezident İlham Əliyev bildirib.

### "MƏĞLUBEDİLMƏZ ERMƏNİ ORDUSU" MİFİ DAĞIDILDI

Zəfər tarixini yazmış Azərbaycan Ermənistana sarsıdıcı zərbə vurmaqla "məğlubedilməz erməni ordusu" mifini dağıtdı. Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Azərbaycan Ordusu döyüş meydanında böyük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı.

44 günlük Vətən müharibəsinin reallıqları bir daha təsdiqlədi ki, Azərbaycan Prezidenti İlham Əliyev həqiqətən də böyük siyasi xadim, strateqdir və hər bir məsələnin müdrikliklə həllinə nail olur. 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan ərazilərimizin azad olunması, münaqişənin bitməsi xalqımızın tarixinə qızıl hərflərlə Zəfərimizi yazdı. Xalqımızın Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməsi, həmrəyliyi, milli birliyi, vahid amal uğrunda birləşməsi nəticəsində 44 günlük Vətən müharibəsində 30 il ərzində silahlanmış, istehkamlar qurmuş düşmən üzərində Qələbəmizə nail olduq. Bu Qələbə xalqımızın əzmini, qəhrəmanlığını bütün dünyaya nümayiş etdirdi və sübut etdi ki, Azərbaycan xalqı qələbəni döyüş meydanında əldə etdi.

"Dəmir yumruğ"un gücünü görmüş ermənilər Azərbaycan ordusunun gücünə, Ali Baş Komandanın siyasi gücünə, iradəsinə yaxşı bələddirlər. Azərbaycan Ordusunun Qarabağda başlatdığı 2023-cü ilin 19 sentyabr tarixindəki lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması növbəti qələbəmiz oldu. Dövlət başçımızın bildirdiyi kimi, bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Azərbaycan antiterror tədbirləri nəticəsində konstitusion quruluşunu bərpa etdi.

Artıq Azərbaycan möhtəşəm tarixi gününün - 8 Noyabr Zəfər gününün beşinci ildönümünü qeyd edir. 2020-ci ilin noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. 2020-ci ilin 8 noyabr tarixi - Şuşanın işğaldan azad edildiyi gün bütün Azərbaycan xalqı üçün Zəfər günü kimi günü yadda qaldı. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı və bu mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası idi. "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı", - deyə Prezident bildirmişdir.

Bu gün Şuşada, Laçında, Füzulidə bütövlükdə Azərbaycan ərazisinin hər bir məkanında Azərbaycan bayrağı dalğalanır. 2023-cü ilin oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyev üçrəngli Azərbaycan Bayrağını Xankəndidə, Ağdərədə, Xocalıda və Xocavənddə ucaldaraq xalqımıza tam qələbə xəbərini verdi. Tarixi ədalət bərpa olundu və bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

ANALİTİK

# Postimperiya kölgəsində

## Yaxud, Rusiya niyə Azərbaycana qarşı ideoloji savaş aparır?



***Rusiyanın Azərbaycana qarşı ideoloji və informasiya müstəvisində apardığı siyasətin kökləri həm tarixi, həm geosiyasi, həm də psixoloji amillərlə bağlıdır. Rusiya əsrlər boyu Cənubi Qafqazı öz "təsir dairəsi" kimi görüb. XIX əsrdən etibarən bölgəni işğal etməsi və Azərbaycanı Rus imperiyasına, sonra isə SSRİ-yə daxil etməsi, Moskvanın bu əraziləri "tarixi irsi" kimi qəbul etməsinə gətirib çıxarıb. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Rusiya, xüsusilə Putinin hakimiyyəti dövründə, bu itirilmiş nəzarəti ideoloji və informasiya vasitəsilə bərpa etməyə çalışır. Bu, "postimperiya nostalgiyası" adlanan fenomenlə bağlıdır – yəni keçmiş imperiyanın keçmiş əraziləri üzərində təsir saxlamaq istəyi.***

Azərbaycan müstəqil enerji siyasəti və Qərbə inteqrasiya xətti ilə Rusiyanın regional maraqlarına alternativ yaradır. Enerji amili: Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi layihələr Rusiyanın enerji monopoliyasını zəiflədir. Azərbaycan-Türkiyə hərbi və siyasi ittifaqı (Şuşa Bəyannaməsi) Moskva üçün strateji narahatlıq hesab edilir. Qarabağ müharibəsindən sonra Rusiyanın bölgədə təsir imkanlarının azalması (xüsusilə 2023-cü ildən sonra sülhməramlıların çıxarılması) Kreml üçün ciddi zərbə idi. Bu səbəbdən, Rusiya ideoloji və informasiya hücumu vasitəsilə Azərbaycana təzyiq göstərməyə çalışır. Rusiya müxtəlif platformalarda Azərbaycanı hədəf alan təbliğat aparır. Rus mediasında və "ekspert dairələrində" Azərbaycanın Türkiyə ilə yaxınlaşması, Qərbə yönəlməsi "təhlükə" kimi təqdim olunur. Sosial mediada və rusdilli platformalarda dezinformasiya kampaniyaları – guya Azərbaycanda ruslara qarşı diskriminasiya, yaxud "ekstremizm" var kimi xəbərlər yayılır. Məqsəd Azərbaycanda ictimai parçalanma yaratmaq, Türkiyə-Azərbaycan birliyinə kölgə salmaq, daxili narazılıqları qızışdırmaqdır.

Rusiya öz ideoloji təsirini "rus dili və mədəniyyəti" vasitəsilə qorumağa çalışır. "Rus dünyası" konsepsiyası (russkiy mir) bu siyasətin əsas ideoloji sütunudur. Moskva Azərbaycanı bu "mədəni məkanın" bir hissəsi kimi görmək istəyir, amma Azərbaycan türk və islam kimliyini önə çəkdiyi üçün bu, Rusiyanın konsepsiyası ilə ziddiyyət təşkil edir. Rusiyanın Azərbaycana qarşı ideoloji və təxribat yönümlü siyasətinin arxasında imperiya düşüncəsi dayanır. Yəni, "Azərbaycan Rusiyanın təsir dairəsindən çıxmamalıdır" kimi tezislər tez-tez tirajlanır. Geosiyasi rəqabət – enerji, Türkiyə, Qərb faktoru da Moskvanın gərgin olmasında böyük payı olan amildir. İnformasiya nəzarəti arzusu – ictimai şüuru yönləndirmək və Azərbaycan cəmiyyətində çaşqınlıq yaratmaq istəyi də bu siyasətin önündə dayanır.

Rusiyanın Azərbaycana qarşı ideoloji və informasiya müharibəsinin konkret təzahürlərini detallı şəkildə izah edərkən, burada söhbət təkcə təbliğatdan yox, həm də planlı şəkildə ictimai şüura, mediaya, mədəniyyətə və siyasətə təsir mexanizmlərindən gedir. Rusiyanın Azərbaycana qarşı ideoloji və informasiya savaşının konkret təzahürləri media üzərindən aparılan təxribatlarında özünü daha geniş ölçüdə göstərir. Rusiya uzun illərdir ki, informasiya məkanında Azərbaycana qarşı rusdilli KİV-lər (Sputnik, Regnum, Lenta, Tsargrad, Nezavisimaya Gazeta və s.) vasitəsilə sistemli kampaniyalar aparır. Azərbaycanın Türkiyə ilə müttəfiqliyi "neo-osmançılıq" kimi təqdim olunur və Azərbaycan Qərbin aləti kimi göstərilir.

Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyi "aqressiya" kimi yozulur. Bu media orqanları tez-tez erməni mənbələrinə əsaslanır və onların narrativlərini (Azərbaycan "sülh istəmir", "etnik təmizləmə aparır" və s.) təkrarlayır. Məqsəd beynəlxalq aləmdə Azərbaycanın imicinə zərbə vurmaq və daxildə şübhə, qorxu, etimadsızlıq yaratmaqdır. Sosial media manipulyasiyaları və "bot orduları" diqqət çəkir. Rusiyanın informasiya əməliyyatlarında sosial şəbəkələr mühüm rol oynayır. Rusiyanın troll və bot şəbəkələri Twitter (X), Telegram və YouTube platformalarında Azərbaycan əleyhinə kampaniyalar aparır. Məsələn, Qarabağ məsələsində "Azərbaycan Rusiya əleyhinə çıxır" kimi paylaşımlar edilir. Daxili mövzularda "Türkiyənin Azərbaycanda çox təsiri var", "dini radikalizm artır" kimi qorxu ritorikası paylaşılır. Məsələnin kökündə ictimai şüuru çaşdırmaq, Türkiyə-Azərbaycan birliyinə kölgə salmaq və cəmiyyətdə qarşıdurma mühiti formalaşdırmaqdır.

"Beşinci kolon"un fəaliyyətindən danışmamaq olmur. Bu, Rusiyanın postsovet məkanında ən çox istifadə etdiyi üsullardan biridir. "Beşinci kolon" dedikdə, ölkə daxilində Moskvanın maraqlarına işləyən qruplar, ictimai şəxslər, mədəni və dini dairələr nəzərdə tutulur. Azərbaycanda da bir sıra şəxslər və təşkilatlar özlərini "rus mədəniyyətinin dostu" kimi təqdim edib, əslində isə Rusiya ideologiyasını yaymağa çalışırlar. Onların fəaliyyət istiqamətləri - "Rus dili və mədəniyyəti" adı altında Rusiya təsirini saxlamaq, Azərbaycan dövlət siyasətinə qarşı "yumşaq müxalif mövqelər" formalaşdırmaq, Qərb və Türkiyə əleyhinə təbliğat aparmaq.

Rusiya mədəni diplomatiyanı da ideoloji alət kimi istifadə edir. "Rus dünyası" (Russkiy mir) konsepsiyası vasitəsilə rusdilli təhsil, kino, ədəbiyyat və KİV sahəsində ideoloji təsir yaradılır. Rus pravoslav kilsəsinin təsiri ilə xristianlıq və pravoslavlıq "sülh mədəniyyəti" kimi, İslam isə "riskli ideologiya" kimi təqdim olunur. Məqsəd isə dəyişməzdir, Azərbaycanın milli-mənəvi kimliyini zəiflətmək, özünü "rus mədəni məkanına aid" kimi hiss etdirən yeni nəsil formalaşdırmaq.

Qarabağ və sülh prosesi ilə bağlı təxribatlar isə son vaxtlar daha geniş və çeşidli üsullarla dövrəyə buraxılır. Qarabağ məsələsində Rusiya "vasitəçi" görünsə də, əslində çox vaxt prosesin uzanmasında maraqlı olur. Rus KİV-ləri və "ekspertləri" sülh prosesinin uzadılmasını, Ermənistanın "müttəfiq" kimi saxlanmasını və Azərbaycanı təzyiq altında tutmağı hədəfləyir. Sülhməramlıların çıxarılmasından sonra Rusiya informasiya səviyyəsində bu prosesi "Azərbaycanın xeyrinə birtərəfli dəyişiklik" kimi təqdim edərək, Bakıya qarşı neqativ rəy formalaşdırır. Hərbi və təhlükəsizlik yönümlü ideoloji basqılar zamanı Rusiya zaman-zaman Azərbaycan cəmiyyətində təhlükəsizlik qorxusu formalaşdırmağa çalışır. "Əgər Rusiya olmasa, bölgə müharibəyə gedəcək", "NATO-nun yaxınlaşması Qafqazı dağıdacaq" kimi tezislər yayılır. Bu, Moskvanın "bizsiz sabitlik yoxdur" mesajıdır – psixoloji asılılıq yaratmaq məqsədi daşıyır.

Azərbaycan daxilində etnik və dini parçalanma cəhdləri isə daha təhlükəli addımlardan xəbər verir. Azərbaycan tarixən tolerant ölkə və xalq olaraq tanınıb. Tarixin heç bir dönəmində Azərbaycan və azərbaycanlılar etnik zəmində qarşıdurmanı başlatmayıblar və bunda heç vaxt maraqlı olmayıblar. Rusiya isə uzun illərdir etnik azlıqlar və dini qruplar üzərindən təsir yaratmağa çalışır. Sosial şəbəkələrdə "Talış", "Ləzgi", "Avar" kimliyi üzərindən separatizm çağırışları edir, Şiə-Sünni münasibətlərini pozmaq üçün İranla koordinasiyalı təxribatlar planlayır. Bunlar hamısı "parçala, hökm sür" prinsipi üzərində qurulub.

Yekun nəticə isə bundan ibarətdir ki, Rusiyanın Azərbaycana qarşı ideoloji və informasiya müharibəsi təsir zonasını qorumaq, Türkiyə və Qərblə əlaqələri zəiflətmək, cəmiyyətdə parçalanma və qorxu mühiti yaratmaq, Azərbaycanın müstəqil geosiyasi kursunu ləngitmək məqsədi daşıyır.

### Bəs, nə etməli?

Rusiyanın Azərbaycana qarşı ideoloji və informasiya hücumları yalnız o zaman təsirsizləşdirilə bilər ki, Azərbaycan həm dövlət səviyyəsində, həm də ictimai səviyyədə sistemli və strateji cavab mexanizmləri qursun. Rusiyanın ideoloji və informasiya müharibəsinə qarşı Azərbaycanın effektiv cavab strategiyalarının mərhələli şəkildə aparılması lazımdır. Birincisi, milli informasiya təhlükəsizliyi konsepsiyası gücləndirilməlidir. Azərbaycanın informasiya məkanını qorumaq üçün dövlət səviyyəsində strateji və hüquqi mexanizmlər lazımdır. Rusiya və digər xarici təsir cəhdlərinə qarşı konkret mexanizmlərlə Milli İnformasiya Təhlükəsizliyi Konsepsiyası qəbul edilməlidir. Media Monitorinq Mərkəzi və Kibertəhlükəsizlik qurumları sistemli şəkildə xarici təbliğatı izləməli, təxribat mənbələrini ifşa etməlidir. Xarici maliyyə mənbələri ilə idarə olunan media və QHT-lərin fəaliyyətində şəffaflıq artırılmalıdır. Burada məqsəd informasiya hücumlarına qarşı dövlət səviyyəsində proaktiv müdafiə qurmaqdır.

İkincisi milli ideoloji konsepsiyanın formalaşdırılmasıdır. Azərbaycanın öz ideoloji "dayağı" olmasa, xarici təsirlər asanlıqla təsir edə bilər. Bu səbəbdən dövlət, cəmiyyət və media üçün vahid ideoloji xətt formalaşdırılmalıdır. Azərbaycançılıq ideologiyasının müasir interpretasiyası, Türk dünyası ilə birliyə əsaslanan milli kimlik, islam dəyərləri ilə dünyəviliyin harmoniyası, Suveren və dünyaya açıq, lakin milli maraqlara əsaslanan siyasət əsas prinsip olaraq götürülməlidir. Belə olan halda cəmiyyət ideoloji baxımdan möhkəmləndikdə, xarici təbliğatın təsiri də azalır.

Digər bir vacib məsələ media savadlılığı və ictimai maarifləndirmədir. Rusiya təbliğatı çox vaxt sosial şəbəkələr və saxta "ekspert fikirləri" üzərindən yayılır. Ona görə cəmiyyətin informasiya savadlılığı artırılmalıdır. Tədbir kimi öncə məktəblər və universitetlərdə "media savadlılığı" fənni tədris oluna bilər. Jurnalistlər və bloqerlər üçün anti-dezinformasiya təlimləri təşkil edilməlidir. Dövlət və QHT-lər dezinformasiyanın ifşası üçün platformalar yaratmalıdır. Məqsəd isə vətəndaşın informasiya toxunulmazlığını artırmaq və "troll təsirinə" qarşı immunitet yaratmaqdır. Azərbaycan mediasının keyfiyyətcə gücləndirilməsi mütləqdir. Rusiya təbliğatının əsas gücü ondadır ki, o, professsional və emosional dildə danışır. Ona görə Azərbaycan mediası da həm peşəkar, həm emosional-ictimai dildə daha təsirli olmalıdır. Dövlət dəstəyi ilə müstəqil, amma milli maraqlara sadiq media orqanlarının inkişafı vacibdir. Xarici dildə yayımlanan Azərbaycan mediasının (rus, ingilis, ərəb və s.) fəaliyyəti gücləndirilməlidir. Müasir sosial media kontent strategiyaları — qısa videolar, vizual təbliğat, gənclərə yönəlik mesajlar hazırlamalıdır. Yuxarıda sadalananları həyata keçirmək mümkün olsa, Rusiya mediası regionda "vahid informasiya mənbəyi" olmaq statusunu itirər.

Beşinci kolon və təxribatçı şəbəkələrin neytrallaşdırılması da məqsədə çatmaqda bütün çətinlikləri aradan qaldıra bilər. Rusiya təbliğatı çox zaman ölkə daxilində "ideoloji agentlər" vasitəsilə yayılır. Bu, ən təhlükəli istiqamətdir. Xarici təsir altında fəaliyyət göstərən "mədəniyyət" və "təhsil" layihələrinin maliyyə mənbələri yoxlanmalıdır. Dövlət Təhlükəsizlik Xidməti və Medianın İnkişafı Agentliyi bu məsələ üzrə koordinasiyalı nəzarət mexanizmi yaratmalıdır. "Rusiya mədəniyyət mərkəzləri" və "fondları"nın fəaliyyətinə şəffaflıq və balanslılıq tələbi qoyulmalıdır.

Rusiya çox vaxt tarixi təhrif edərək "Azərbaycan Rusiya sayəsində formalaşıb" kimi saxta narrativlər yayır. Buna qarşı milli tarixi yaddaş strateji ideoloji silah kimi istifadə olunmalıdır. Milli tarix, müstəqillik və dövlətçilik haqqında müasir filmlər, sənədli layihələr, sosial media kampaniyaları, uşaqlar və gənclər üçün "Müstəqillik məktəbləri", "Azərbaycan tarixi klubları", xarici dillərdə Azərbaycan tarixini doğru təqdim edən elmi və populyar nəşrlər dərc edilməlidir. Rusiya və cənub qonşumuz tez-tez dini və etnik zəmində parçalanma yaratmaq istəyir. Bunun qarşısı yalnız daxili milli birliyin möhkəmləndirilməsi ilə alınar. Bütün dini və etnik icmaların dövlət siyasətində bərabər təmsilçiliyi, dini liderlərin və QHT-lərin antitəxribat təlimlərinə cəlb olunması, milli birliyi gücləndirən ümummilli dəyərlərin (dil, mədəniyyət, ordu, bayraq) təbliği ən optimal variantdır.

Beləliklə, Azərbaycan Rusiyanın ideoloji və informasiya təxribatlarına qarşı uğurlu müqavimət göstərə bilər. Əgər dövlət səviyyəsində informasiya təhlükəsizliyi strategiyası gücləndirilərsə, cəmiyyət ideoloji cəhətdən möhkəm və milli kimliyinə inamlı olarsa, media müstəqil, amma milli maraqlara sadiq fəaliyyət göstərərsə istədiyimizə nail ola bilərik.

**V.VƏLİYEV**

# 44 gün və 23 saata bütövləşən Azərbaycan

*30 il işğal altında inləyən torpaqlarımızın azad edilməsi elə 30 il idi ki, bu xalqı narahat edən ən başlıca məsələ idi. Başımız aşağı, üzümüz qara idi. Bu namus məsələsi bizə başımızı dik tutub yeriməyə cəsarət vermirdi. Çünki hara gedirdiksə, harada söhbət düşürdüsə, torpaqları işğal olunmuş bir xalqın nümayəndələri olaraq qarşılanırdıq. Qarabağdan söhbət açılanda yaramızın qaysağını qoparırdılar elə bil. Yenə qanı süzürdü, yenə ağrısı ərşə qalxırdı. 30 il yaralarımız təkrar-təkrar soyuldu, qaysaqladı, yeniləndi, sağalmadı.*




### Unudulmaz tarix

Nə az, nə çox, 30 il torpaq həsrəti ilə yanıb yaxıldıq. Məcburi şəkildə çıxarıldığımız yurdlarımız yolumuzu gözlədi. Həyətimiz, bağ-bağatımız, min bir zəhmətlə qurduğumuz evlərimizə sadəcə yuxularımızda qonaq getdik. Əzizlərimizi itirdik. Onların "yurdum-yurdum" deməsinə illərlə şahid olduq. Ahi-naləsi qaldı qulaqlarımızda. Yurdu üçün axıtdığı yaşlar qaldı gözlərimizdə. Köçkünlüyün ilk illərində qarşılaşdığımız zülmün min bir üzü həkk oldu beyinlərimizə.

Ermənilərin gözlərimiz qarşısında övladlarımızı süngüyə taxması, yaşlılarımıza təhqiramiz şəkildə yanaşması, bizi silah burnunda evimizdən didərgin salması illərin acı xatirələrinə çevrildi. Həyatımız göz yaşları vərəqlərində saralan xatirə dəftərinə çevrildi. Bu dəftərin hər səhifəsi torpaq, yurd oldu bizə, lakin onların ətrini verə bilmədi.

Minlərlə övladımızı itirdik Birinci Vətən müharibəsində. Köksümüzə dağ çəkildi. Atamız, həyat yoldaşımız, nişanlımız, sevdiyimiz, qardaşımız şəhid oldu. Həm əzizlərimizi itirdik, həm də əzizimizdən də əziz torpağımızı, yurdumuzu. Həm yurdsuz qaldıq, həm də atasız, qardaşsız, yoldaşsız...

Düz 30 il hər gün günü ümidlə başlayıb ümidsizliklə bitirdik. Hər səhər gözlərimizi "bəlkə bu gün olar" deyə inamla açdıq. Lakin gecənin qaranlığında "bu gün də olmadı" deyə gözlərimizi yenidən bir inamsızlığa qapatdıq. Torpağımızla, yurdumuzla, evimizlə bağlı qurduğumuz xəyalları günlər bizi ovuda-ovuda elə xəyal olaraq da saxladı. Bu xəyallar yurdumuzda övladımızın məktəbə getməsi, toyu-nişanı ilə bağlı idi. Bu xəyallar həyatda vidalaşmaq vaxtımız çatanda öz yurdumuzun torpağında dəfn olunmağımızla bağlı idi.

Lakin illər bir-birini əvəz etdikcə, bu xəyallar da xəyal olaraq qalırdı. Neçələrimiz elə yad yurddaca dünyamıza "əlvida" deyib, yad yurda da torpaq evə qonaq olduq. Neçələrimiz yurdumuzda deyil, başqa yurdda birinci sinfi onbirinci etdik. Neçələrimiz yurdumuzda yox, köçkünlükdə nişanlandıq, toyumuz oldu, hətta övladlarımız üçün də bu, eyni cür oldu. Öz evlərimiz nə gəlin qarşıladı, nə gəlin köçürdü. Ağsaqqal, ağbirçəklərimiz öz evindən qəbir evinə yollana bilmədi. Bütün bunlar isə ürəyimizə dağ boyda dağ çəkdi zaman-zaman...

### 30 ilin acısını silən 44 gün

30 ilin hər saatı, hər dəqiqəsi Qarabağın işğaldan azad edilməsi üçün dövlətimiz çalışdı, danışıqlar apardı, haqq səsimizi dünyaya yaydı. Erməniləri dəfələrlə sülhə çağırdı. Özlərinin olmayan torpaqlardan əl götürməyə dəvət etdi. Lakin dünyanın karlığı, qonşuluqdakı ermənin tamahı səsimizi eşitməyə imkan vermədi. Beləliklə, bu işi yalnız özümüzün həll edə biləcəyinə qərar verdik. Bunun üçün ilk olaraq ölkəmizin çökmüş iqtisadiyyatını dirçəltməyə başladıq. Ordumuzu təkmilləşdirdik. Çünki Birinci Vətən müharibəsində məğlubiyyətimizin səbəblərindən biri də mükəmməl milli ordumuzun olmaması idi. Bu səbəbdən də düşmənin qarşısına layiqli ordu çıxarmaq dövlətimizin qarşısına qoyduğu əsas məqsəd oldu.

Qarabağ mövzusu 1993-2003-cü illərdə Ümummilli Liderimizin, 2003-cü ildən 2020-ci ilə qədər isə dövlətimizin başçısı cənab İlham Əliyevin fəaliyyətinin prioritetini təşkil etdi. Ölkə rəhbəri 20 ilə yaxın bir dövrdə Qarabağın sülh yolu-insan itkisi olmadan qaytarılması təklifi və təkidi ilə dünyanın bütün mötəbər kürsülərindən çıxış etdi. Lakin dünya susdu. Ermənilər özlərini karlığa vurdu.

Prezident, Ali Baş Komandanımız bütün çıxışlarında Qarabağ məsələsinin sülh yolu ilə həllinin mümkün olmadığı təqdirdə hərb yolu ilə həll olunacağını vurğulayırdı. Bu, sadəcə verilən söz deyildi. Bu söz böyük inam idi. Və bu sözün bir tərəfində də qurulmaqda, təkmilləşdirilməkdə olan Azərbaycan Milli Ordusu dayanırdı. Elə bir ordu ki, zaman gələcək, müharibə meydanında dövlətimizin başçısının verdiyi sözü



öz gücü ilə təsdiqləyəcəkdi.

Belə də oldu. Dünyanın susduğunu, ermənilərin isə hər gün daha da azğınlaşdığını görən Azərbaycan dövləti bu məsələnin son yolunun hərbi yol olduğunu əsas götürərək, ermənilərə yerini göstərməyin vaxtı çatdığını dünyaya nümayiş etdirdi. 2020-ci ilin 27 sentyabrı İkinci Vətən müharibəsinin başlandığı tarix oldu.

Cəmi 44 gün davam etdi bu müharibə. 30 ilin ələm-qəmini, dərd-sərini, ağrı-acısını, utancını 44 günün saatları, dəqiqələri silə-silə irəliləyirdi. Düzdür, müharibə heç də asan iş deyil. Çətindən çətindir, həm maddi, həm mənəvi ağırlığı ilə. Bəlkə də Qarabağ uğrunda birinci müharibədən də çox acısı olacaqdı. Lakin xalq bu acıları artıq gözə almırdı. Çünki torpağını istəyirdi. Alnındakı qara ləkəni övladının qanı ilə silməli olsa da, bu ləkənin silinməyi vacib idi. Ona görə ki, azərbaycanlılar əsrlərin o üzündən bəri heç vaxt alnı ləkəli yaşamamışdı. Torpaq-namus məsələsi onların ən həssas duyğusu olub. Bu duyğularla oynamaq fikrində olanlar isə tarixin bütün dönəmlərində ağır cəza alıblar.

Elə bütün bunlara görə də xalq bir nəfər kimi Ali Baş Komandanın çağırışına səs verdi, Onun ətrafında birləşdi. Həmrəylik nümayiş etdirdi. Könüllü şəkildə cəbhəyə yollanmaq istəyənlərin, bunun üçün səfərbərlik idarələrinə müraciət edənlərin sayı-hesabı olmadı.

2020-ci ilin 44 günündə bir dastan yazıldı. Bu dastanda dövlətimizin yeri başqa, xalqın yeri başqa, bu xalqın övladlarının yeri isə başqa oldu. Hər kəs mövqeyindən asılı olmayaraq birlik göstərdi. Elə Qarabağ dastanının yaşanmasına və yazılmasına səbəb də bu birlik oldu. 44 günün hər anı qələbələrlə dolu oldu. Dövlətimizin başçısı dəfələrlə xalqa müraciət etdi və hər müraciətində yeni qələbə xəbərlərini xalqımıza çatdırdı, onları təbrik etdi.

Bu müraciətlər inamla dolu idi. Bu müraciətlərdən hər gün bir qədər də irəliyə addımlamağa cəsarət alırdıq. Düşmənin əzilməsini, məhv edilməsini, torpaqlarımızın da, bu torpaqlar uğrunda canlarından keçənlərin də qisasının alınması ilə dolu idi bu müraciətlər. Bu müraciətlərlə yurdlarımız yenidən bizim olurdu, bayrağımızın o yurdların ən yüksək zirvələrində dalğalanmasını görürdük. Bu müraciətlərdə xalqın sevinc göz yaşlarını görürdük. Yurd, doğma torpaq sevgisini görürdük.

Beləliklə, 44 gün başa çatdı, noyabr ayının 10-da Ali Baş Komandanımızın sərkərdəliyi ilə milli ordumuzun qətiyyəti qarşısında düşmən ağ bayraq qaldırıb təslim olduğunu elan etdi. Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan üçtərəfli Bəyannamə ilə ermənilərin qarşısına öhdəliklər qoyuldu. Onlar bu öhdəliklərin yerinə yetiriləcəyinə söz verərək müharibənin dayandırılması üçün yalvardılar.

Azərbaycan isə 30 ilin qisasını 44 gündə düşməndən zərrə-zərrə aldı. Sonda isə Böyük Zəfər qazandı. Qarabağ 30 il sonra 44 gün içərisində yenidən anası Azərbaycana qovuşdu. Və Zəfərdən dərhal sonra da düşmən tərəfindən daşı daş üstündə qalmayan həmin torpaqlarda bərpa işlərinə başlandı ki, bir qərinəyə yaxın yurdundan didərgin salınmış soydaşlarımız qısa zamanda əzəli torpaqlarına, evlərinə qayıda bilsinlər.

### Müharibədən sonrakı 3 il və 23 saat

Bəli, Zəfər qazandıq. 10 noyabr Bəyannaməsi ilə müharibə bitdi. Bu gün aradan 5 il keçir. Lakin Ermənistan bu illər ərzində sülh sazişinə də əməl etmədi, Bəyannamədə üzərinə düşən öhdəlikləri yerinə yetirməyə də. Qarabağda və Şərqi Zəngəzurda atəşkəsi hər dəqiqə pozdu, illərlə minaladığı ərazilərin xəritəsini verməyərək bizim üçün olmazın problemlərini yaratdı. Ən əsası isə imza atdığı sənəddəki öhdəlikləri yerinə yetirməkdən boyun qaçırdı.

Ermənistan bizim ərazimizdə yaşayan soydaşları vasitəsilə talançılıq işlərini yenə də davam etdirdi. Silah-sursat toplamağa, separatçıları bu torpaqlarda yerləşdirməyə başladı. Dara düşəndə isə səsini dünya ictimaiyyəti ilə bir etdi ki, Azərbaycan bizə humanitar yardım üçün yol vermir, bizi incidir. Beləliklə də yeni problemlər meydana gəldi.

Erməni yalanı, ikiüzlülüyü yenə də işə başladı. Lakin düşmən nədənsə 44 günlük müharibədə Azərbaycanın verdiyi dərsi unutmağa başladı. Ötən müddətdə dirçəldiyini, yeni təxribatlara başlamağa özündə güc olduğunu zənn etdi. Bu yeni təxribatın əsası isə müxtəlif terror hadisələri, işğaldan azad edilmiş ərazilərimizə 2021-ci ildə Ermənistanda istehsal olunan minaların basdırılması, xidməti işlə bağlı həmin ərazilərdə olan soydaşlarımızın minaya düşüb həyatını itirməsi oldu.

Erməni terror dəstələrinin, bu dəstələrin quldur başçılarının qarşılarına qoyduqları məqsəd bizim üçün aydın olsa da, lakin özləri üçün aydın deyildi ki, 44 gündə axı başımız olmazın müsibətlərini çəkdi. Biz başımızı yenə hara qaldırırıq...

Azərbaycan isə hərzamankı "torpaqlarımıza göz dikənlərin, ərazi bütövlüyümüzü, konstitusiya quruluşumuzu pozanların hər biri cəzasını alacaqdır" bəyanatı ilə yenidən gündəmə gəldi. Çünki bunu erməni separatçılarının özləri belə istədilər.

Beləliklə, 19 sentyabr saat 13.00-da Azərbaycan erməni terrorizminə qarşı lokal antiterror tədbirlərinə başladı. Və göstərmək istədi ki, heç kim Azərbaycan ərazisində təxribat törədə, at oynada bilməz. Bu tədbirin müsbət tərəfi həm də onunla xarakterizə olunur ki, antiterror təbdirləri Ali Baş Komandanımızın mülki əhaliyə və mülki obyektlərə zərər vurulmaması əmri ilə həyata keçirildi. Bu isə bizim həm 1-ci, həm də 2-ci Vətən müharibəsində ermənilərdən fərqliliyimizi, insanlığa, beynəlxalq hüquqün normalarına sayğı və məsuliyyətlə yanaşdığımızı təsdiq edən məqam idi.

Bizim işimiz təbii ki, erməni xalqı ilə deyil, separatçı qüvvələr ilə idi. Bu ünsürlər də cəmi 23 saatda zərərsizləşdirildi, 44 günün sonunda olduğu kimi, yenə də ağ bayraq qaldırıb təslim oldular və danışıqlara razı olduqlarını bildirdilər.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur dövlətimizin apardığı uzaqgörən siyasət, qətiyyətli addımla erməni revanşistlərindən bir daha azad edildi. Bir qarış da olsun torpağımız düşmən əlində qalmadı. Bununla da ərazi bütövlüyümüz və konstitusiya quruluşumuz tamamilə bərpa olundu.

Qarabağda və Şərqi Zəngəzurda yeni həyat başladı, 44 gündən sonra başlayan yeni həyatdan da gözəl və təhlükəsiz.

***

Tariximizin səhifələrinə 30 ilə 44 gündə, 3 ilə 23 saatda aydınlıq gətirən bir tarix də əlavə olundu. Bu, bizim qürur tariximizdir. Namus məsələmizi həll edən, alnımızı açıq, başımızı dik edən bir tarixdir. Odur ki, bu tarixi də, bu günləri də bizə yaşadanları tarix boyu unutmayacağıq... Ətrafında birləşdiyimiz "Dəmir yumruq" Qarabağın və Şərqi Zəngəzurun nicatı olaraq müasir tariximizin ilk səhifəsidir. İlk dərs kimi həyat boyu xatırlayacağımız ilk səhifə...

**Mətanət Məmmədova**



Kəmalə Abbasova, tarix müəllimi

# Bayraq - milli kimliyimizin, suverenliyimizin və qürurumuzun simvolu

***Azərbaycan Respublikasının Dövlət Bayrağı xalqımızın azadlıq mübarizəsinin, milli kimliyinin və dövlətçiliyinin ən uca rəmzlərindən biridir. Hər bir dövlətin tarixində onun atributları – bayraq, gerb və himn – müstəqilliyin daşıyıcısı kimi müqəddəs məna daşıyır. Azərbaycan Respublikasının üçrəngli bayrağı xalqımızın əsrlərlə formalaşmış mənəvi dəyərlərini, milli birliyini və müasir dövlətçilik ideallarını özündə birləşdirir.***

Ümummilli Lider Heydər Əliyevin “Azərbaycan Bayrağı, sadəcə, bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir” fikri bu rəmzin mənəvi və siyasi dəyərini ən dolğun şəkildə ifadə edir.

Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün qeyd olunması Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlıdır. 1918-ci il noyabrın 9-da qəbul edilmiş üçrəngli bayraq xalqımızın müstəqil dövlətçilik ənənələrinin rəmzi kimi tarixə düşmüşdür. Bu bayraq mavi, qırmızı və yaşıl rənglərdən ibarət olub, “Türklük, müasirlik və islam birliyi” ideyalarını özündə əks etdirir. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bu bayraq dövlət statusunu itirsə də, xalqın yaddaşında milli istiqlalın simvolu kimi yaşamaqda davam etmişdir. XX əsrin sonlarında dövlət müstəqilliyimizin bərpası ilə üçrəngli bayraq yenidən xalqımızın qürur mənbəyinə çevrilmişdir.

Azərbaycanın dövlətçilik tarixində 1990-cı il noyabrın 17-si xüsusi yer tutur. Məhz həmin gün Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanın Dövlət Bayrağı kimi qəbul edilmişdir. Bu qərar yalnız Naxçıvan üçün deyil, bütövlükdə Azərbaycan xalqı üçün milli ruhun dirçəlişi baxımından mühüm tarixi addım idi. Ulu Öndərin bu təşəbbüsü sonradan Azərbaycanın Ali Sovetində də dəstəklənərək 1991-ci il fevralın 5-də “Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında” Qanunun qəbul edilməsinə səbəb olmuşdur.

Ulu Öndər Heydər Əliyev bu qərarın mahiyyətini belə ifadə etmişdir: “Biz burada, Naxçıvanda ilk dəfə milli bayrağımızı dövlət səviyyəsində qaldırdıq. Bu, müstəqil Azərbaycanın başlanğıcı idi.” Məhz həmin tarixi qərar Azərbaycanın müstəqillik yolunun ideoloji əsaslarını formalaşdırdı və dövlət atributlarının qəbuluna zəmin yaratdı.

1991-ci il oktyabrın 18-də qəbul edilən “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə ölkəmiz Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edildi və üçrəngli bayraq yenidən dövlət statusu aldı.

Azərbaycan Respublikasının Konstitusiyasının 23-cü maddəsinə əsasən, Dövlət Bayrağı eni bərabər olan mavi, qırmızı və yaşıl zolaqlardan ibarətdir. Qırmızı zolağın mərkəzində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir olunmuşdur. Bu təsvirlər Azərbaycan xalqının milli mənsubiyyətini, mədəni kimliyini və müasir dövlətçilik ideyasını ifadə edir.




Bayrağımız həm milli kimliyimizin, həm də dövlət suverenliyimizin rəmzidir. Azərbaycan Respublikasının qanunvericiliyi bu müqəddəs rəmzə münasibəti dəqiq müəyyən etmişdir. “Azərbaycan Respublikasının Dövlət Bayrağının istifadəsi qaydaları haqqında” 2004-cü il tarixli Qanunla dövlət bayrağının istifadə prinsipləri və məhdudiyyətləri müəyyən olunmuşdur. Həmçinin Konstitusiyanın 75-ci maddəsinə əsasən, hər bir vətəndaş dövlət rəmzlərinə – bayrağa, himnə və gerbə hörmətlə yanaşmağa borcludur.

Prezident cənab İlham Əliyevin 17 noyabr 2007-ci il tarixli Sərəncamı ilə Bakıda Dövlət Bayrağı Meydanının yaradılması üçrəngli bayrağımıza olan dövlət səviyyəsində ehtiramın bariz göstəricisidir. 2010-cu il sentyabrın 1-də açılışı keçirilmiş Meydan və 9 noyabrda istifadəyə verilən Dövlət Bayrağı Muzeyi Azərbaycanın dövlətçilik tarixinin və milli dəyərlərinin təbliği baxımından əvəzsiz məkandır.

Meydan 2024-cü ilin noyabrında yenidən açılmış və Prezident cənab İlham Əliyev tərəfindən Azərbaycan bayrağı ucaldılmışdır. Bu gün həmin məkanda dünyanın ən böyük dövlət bayraqlarından biri dalğalanır. Muzeydə Vətən müharibəsinə həsr olunmuş “Zəfər qalereyası” ekspozisiyası Azərbaycan Ordusunun şanlı qələbəsini və bayrağımızın azad edilmiş torpaqlarda ucaldılmasını əks etdirir.

Üçrəngli bayraq artıq təkcə dövlət rəmzi deyil, həm də xalqın qüruru və zəfər simvoludur. 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Qələbədən sonra bayrağımız işğaldan azad edilmiş ərazilərdə ucaldıldı. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Xankəndi, Şuşa, Füzuli, Cəbrayıl və digər şəhərlərdə qaldırılan bayrağımız bu gün Azərbaycan xalqının əzm və birliyinin rəmzinə çevrilmişdir.

Dövlət başçısı həmin anları belə ifadə etmişdir: “Bizim bayrağımız qürur mənbəyimizdir. O, canımız, ürəyimizdir. Bu gün Azərbaycanın hər yerində Dövlət Bayrağı dalğalanır və bundan sonra da daim dalğalanacaq.”

Azərbaycan Respublikasının Dövlət Bayrağı xalqımızın keçdiyi şərəfli tarixin, milli birliyinin və azadlıq iradəsinin təcəssümüdür. Bayrağa hörmət və sədaqət hər bir vətəndaşın mənəvi borcudur.

Ümummilli Lider Heydər Əliyevin “Gərək hər bir evdə Azərbaycan Bayrağı olsun, hər bir ailə ona itaət etsin” sözləri bu rəmzin hər birimizin həyatında tutmalı olduğu yeri aydın şəkildə göstərir. Bu gün üçrəngli bayraq Azərbaycanın dövlət müstəqilliyinin, iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun simvolu kimi dalğalanır. Onun ucalığı, əzəməti və mənəvi gücü xalqımızın sarsılmaz birliyinin və gələcəyə inamının göstəricisidir.



Lalə Mehralı

# Ağac insanlar, kök insanlar…

***İnsanları ağaclara bənzədirəm bəzən. Ağac kimi insanın da kökləri var. Görünmür, amma həm də görünür. Ailədir, dəyərlərdir, qohumluqdur, aid olmaqdır köklər. O köklər insanları həyata bağlayır. Necə ki ağacı kökündən kəssən artıq qidalana bilmir, quruyur, eynisi insan üçün də keçərlidir. Möhkəm ailəyə, anaya, ataya, ölkəyə, dinə və tanrıya aid olmaq, təmənnasız sevildiyini, qorunduğunu hiss etmək - bunların hamısı möhkəmlənmiş köklərdir və insan öz qidasını bu köklərdən alır. Sevgini, aid olmağı, qorunmağı və qorumağı beləcə öyrənir insan. Əgər bu köklər kəsilibsə və ya əvvəldən mövcud olmayıbsa, insan bütün həyatı boyu kök salmaq üçün torpaq axtarır.***

İnsanlar ağaca bənzəyir, harada yaşasa da, hansı şəraitdə olsa da, içində həmişə doğulduğu yerin, ailəsinin, keçmişinin izlərini daşıyır. İnsanlar da ağaclar kimi kökündən ayrılarsa yaşamaq şansı da azalır. İnsanlar ağaca bənzəyir, necə fırtınalara, necə tufanlara sinə gərir ömrü boyu, eynilə kökünün üstündə hər cür fəlakətə sinə gərən ağaclar kimi. İnsanlar ağaca bənzəyir, kök atır olduğu yerdə, sonra budaqları böyüyür, o budaqlar uzaqlara uzanır, o köklər dərinliklərə qədər enir. Bəzən fırtınalara düşür ağaclar, amma kökləri torpağında olduğu üçün ayaqda tab gətirir fırtınalara.

İnsanlar ağaclara bənzəyir. Doğulur, kök atır, boy atır. Böyüyür, düşüncəsi də böyüyür, inkişaf edir, yeni macəra axtarır, köklərindən ayrılır. Hara getsə də kökləri qalır doğulduğu yerdə, getdiyi hər yerə içində bir parça doğulduğu torpaqdan aparır, burnunda o torpağın qoxusu, ayağında o ağacın kökü kimi köklərini aparır.

Əslini, kökünü unudan insanlar da var, əlbət. Amma necə ki, köklərindən ayrılan ağac quruyur, eləcə də insan kökündən ayrı düşəndə unudulur. Şübhəsiz, ən böyük gücümüzü köklərimizdən alırıq, ən böyük cəsarəti də kökümüzə bağlı ikən göstəririk. Kökündən ayrılan insan, torpağını itirən ağac kimidir — yaşasa da, artıq kölgə sala bilmir. Sonra anlayır, kökləri sadəcə torpaq, vətən, ailə demək deyil, onun kökləri yaddaşdır, dili və dinidir, təmənnasız sevgidir.

İnsanlar ağaclar kimidir, onlar da köklərindən qidalanır. Kimliyini, dəyərlərini, özəyinə bağlılığını itirənlər kökündən ayrı düşənlərdir. Kökünü tanımayan insan, torpağını itirmiş ağac kimidir, ya dibçəkdə məhdud imkanlarda var olmağa çalışar, ya da torpaqsız qalıb quruyacaqdır. Bizim gücümüz də, yönümüz də o köklərdə gizlənib. Bizi köklərimiz gücləndirir, cəsarətləndirir, böyüdür. Çünki güc, haradan gəldiyini unutmamaqdadır, köklərini danmamaqdır.




# Bayram günlərində ictimai nəqliyyatın iş qrafikində dəyişiklik olacaq?

## QURUMDAN AÇIQLAMA

*Bayram günləri yaxınlaşdıqca ictimai nəqliyyatdan istifadə edən vətəndaşları ən çox maraqlandıran məsələlərdən biri marşrutların iş qrafiki, hərəkət intervalı və əlavə reyslərin təşkil olunub-olunmamasıdır. İnsanların həm şəhərdaxili, həm də şəhərlərarası səfərlərə olan tələbatının artması nəqliyyatın fasiləsiz və rahat şəkildə təşkilini daha da vacib edir. SİA məsələyə aydınlıq gətirmək üçün Azərbaycan Dəmir Yolları (ADY) və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) sorğu ünvanlayıb.*

AYNA-dan verilən məlumata görə, 8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar respublika ərazisində fəaliyyət göstərən bütün avtovağzal və avtostansiyalar əhalinin nəqliyyat xidmətləri ilə keyfiyyətli və davamlı şəkildə təmin edilməsi üçün 8-11 noyabr tarixlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) şəhərlərarası və rayonlararası marşrutlar üzrə sərnişindaşımaları yerinə yetirən daşıyıcılar tərəfindən fasiləsiz və təhlükəsiz hərəkətin təmin edilməsi, kassalardan tariflərə uyğun biletlərin qanunamüvafiq qaydada satışının həyata keçirilməsi, yarana biləcək sərnişin sıxlığının qarşısının alınması, eləcə də avtobusların təsdiq edilmiş cədvəl üzrə hərəkət qrafiklərinə ciddi riayət edilməsi ilə bağlı bütün avtovağzal və avtostansiyalara müvafiq tapşırıqlar verib.

Bakı Beynəlxalq Avtovağzal Kompleksində (BBAK) bayram günlərində sərnişin axınına uyğun olaraq, marşrutlar üzrə xətlərə buraxılan avtobusların intervalına, sürücülərin sərnişindaşımada təhlükəsizlik qaydalarına əməl etmələrinə xüsusi nəzarət olunacaq. Sərnişin sıxlığının qarşısını almaq üçün xəttə lazımi sayda əlavə avtobusun buraxılması təmin ediləcək. Vətəndaşlar biletləri avtovağzalların kassalarından, həmçinin, "biletim.az" portalından onlayn qaydada əldə edə bilərlər. Qeyd edək ki, "biletim.az" portalında 56 şəhər və rayona, 86 istiqamət üzrə bilet almaq mümkündür. Sistemə 346 reys olmaqla 394 nəqliyyat vasitəsi qoşulub. Onlayn bilet satışı sistemi mərhələli şəkildə sərnişindaşıma sahəsində xidmət göstərən bütün daşıyıcı və avtovağzalları əhatə edəcək.

Xatırladaq ki, Bakıdan bölgələrə böyük sərnişin axını nəzərə alınaraq reyslərin vaxtında yola düşməsi, avtobusların düzgün komplektləşdirilməsi və digər təşkilati məsələləri əngəlsiz təmin etmək məqsədilə reyslər üzrə bilet satışları avtobusların yola düşməsinə 15 dəqiqə qalmışa qədər həyata keçirilir. Avtobusun yola düşməsinə 15 dəqiqədən az vaxt qaldıqda biletlər artıq növbəti reys üçün təqdim olunur. Bu qayda "biletim.az" portalı üzərindən və avtovağzalın kassalarından əldə edilən biletlərə şamil edilir. Vətəndaşlara daha rahat və təhlükəsiz qaydada mənzil başına çatmaq üçün biletləri onlayn qaydada "biletim.az" portalı vasitəsilə əldə etmələri tövsiyə olunur.




ADY-dan isə sorğumuza cavab olaraq bildirilib ki, ADY bayram günlərində gücləndirilmiş rejimdə fəaliyyət göstərəcək "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) bütün strukturları Zəfər Günü və Dövlət Bayrağı Günü ilə əlaqədar qeyri-iş günü elan edilən 8-11 noyabr tarixlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Hərəkətin təhlükəsizliyinin davamlı təmin edilməsi, yüklərin və sərnişinlərin mənzil başına vaxtında çatdırılması məqsədilə hərəkət vasitələrinə texniki baxış keçirilir, reyslər üzrə mütəmadi reydlər, yoxlamalar təşkil edilir.

Artan sərnişin tələbatı nəzərə alınaraq 7-11 noyabr tarixlərində Bakı–Ağstafa–Bakı xətti üzrə hər iki istiqamətdə əlavə qatar reysləri təyin edilib. Bu marşrut üzrə qatar həmin tarixlərdə saat 08:30-da Bakıdan Ağstafaya, 17:20-də Ağstafadan Bakıya yola düşəcək. Bundan əlavə, Zəfər və Bayraq günləri ilə əlaqədar 10 və 11 noyabr tarixlərinin istirahət günü elan olunması nəzərə alınaraq, Bakı–Qazax–Bakı marşrutu ilə hər iki istiqamətdə əlavə reyslər təyin edilib. Qatar Bakıdan saat 07:45-də, Qazaxdan isə 16:40-da yola düşəcək.

Bakı–Qazax–Bakı xətti üzrə hərəkət edən müasir qatarlar qarşıdakı qeyri-iş günlərində də hər gün hər iki istiqamətdə ənənəvi qrafiklə fəaliyyətini davam etdirəcək. Bu ilin avqustunda 32 ildən sonra bərpa edilən Bakı–Ağdam–Bakı marşrutu üzrə 9 noyabr tarixində əlavə qatar reysləri təyin edilib. Bu marşrut üzrə 8 və 9 noyabr tarixlərində hər iki istiqamətdə səfər etmək mümkündür. Qatar Bakıdan saat 07:10, Ağdamdan isə 18:20-də hərəkətə başlayacaq. Sərnişin tələbatını təmin etmək məqsədilə Bakıdan və Qəbələdən 8, 9, 10 və 11 noyabr tarixlərində hər iki istiqamətdə reyslər təşkil ediləcək. Qatar Bakıdan Qəbələyə saat 07:30-da, Qəbələdən Bakıya isə 19:00-da yola düşəcək. 8 noyabrdan başlayaraq həftəsonları bu marşrutla ənənəvi qrafik üzrə səfərlər ikimərtəbəli müasir qatarlarla həyata keçiriləcək.

Bayram günlərində Bakı–Balakən–Bakı xətti üzrə tələbata uyğun olaraq vaqon sayı artırılacaq. Belə ki, 7 noyabrda Bakıdan Balakənə hərəkət edəcək qatara 7 əlavə vaqon, 9 noyabrda Balakəndən yola düşəcək qatara 1 əlavə vaqon, 10 noyabrda isə Balakəndən hərəkətə başlayacaq qatara 4 əlavə vaqon qoşulacaq. Ümumilikdə bu marşrut üzrə qatar hər gün saat 23:50-də Bakıdan Balakənə, saat 22:00-da Balakəndən Bakıya hərəkət edir. Marşrut üzrə Şəki, Qax, Zaqatala və Balakən stansiyalarında, həmçinin dörd aralıq dayanacaqda sərnişinlərin düşüb-minməsi təmin edilir. 8-11 noyabr tarixlərində Abşeron dairəvi dəmir yolu marşrutu üzrə qatarların hərəkəti qeyri-iş günlərinin cədvəli əsasında təşkil ediləcək. ADY-nin 24/7 fəaliyyət göstərən 1822 Əlaqə mərkəzi də bayram günlərində gücləndirilmiş rejimdə çalışacaq. Sərnişinlər qatarların hərəkət cədvəli ilə tanış olmaq və bilet əldə etmək üçün www.ady.az saytına keçid edə və ya "ADY Mobile" tətbiqini yükləyə bilərlər.

***Günel Fərzəliyeva***

# "Qadın karyerası ailə ilə ziddiyyət yaratmamalıdır"



## SOSİOLOQ DANIŞDI

***"Bu gün qadınların təhsil alması, işləməsi, ictimai həyatda fəal iştirak etməsi artıq adi hal kimi qəbul olunur". Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib. O bildirib ki, lakin sual yaranır: "cinsi stereotiplər – yəni "kişinin yeri işdə, qadının yeri evdədir" düşüncəsi – hələ də bizə təsir edirmi?***

Bu məsələyə yanaşarkən unutmamalıyıq ki, biz Şərq–müsəlman cəmiyyətinin nümayəndələriyik. Ona görə də bu kimi məsələlərə milli–mental və dini dəyərlər aspektindən baxmaq daha doğru olar. Son illərdə qadınların karyeraya marağının artması danılmaz faktdır. Gənc xanımların iş həyatında yüksəlməsi, rəhbər vəzifələrə təyin olunması, biznes sferasında öz yerini tutması sevindirici haldır. Amma bu tendensiyanın digər tərəfi də var.

Karyerist düşüncəyə sahib olan qadın bəzən ailə həyatını, övladlarına və həyat yoldaşına diqqəti ikinci plana keçirir. Bu isə ailə münasibətlərində soyuqluğa, hətta boşanmalara səbəb ola bilər. Əgər qadın yalnız işini həyatının mərkəzinə çevirirsə, zamanla həm özü, həm ailəsi, həm də cəmiyyət bu balanssızlığın mənfi nəticələrini hiss edir. Əlbəttə, bu o demək deyil ki, qadın işləməməli və ya təhsil almamalıdır. Əksinə, savadlı və iqtisadi cəhətdən müstəqil qadın ailənin dayağı, övladlarına isə nümunə ola bilər. Sadəcə, hər şeyin ölçüsü və həddi olmalıdır. Qadının karyerası ailə dəyərləri, ana və həyat yoldaşı rolu ilə ziddiyyət təşkil etməməlidir.



Tarix boyu kişilər ailəni qorumaq və təminatla məşğul olmaq, qadınlar isə ailə mühitinə istilik və sevgi gətirmək kimi vəzifələri yerinə yetiriblər. Bu, təkcə adət–ənənədən yox, həm də insanın təbiətindən irəli gəlir. Kişinin işinə və karyerasına daha çox vaxt ayırması ailə daxilində o qədər də ciddi boşluq yaratmır. Amma həm ər, həm də arvad karyeraya eyni dərəcədə fokuslandıqda ailədə sevgi və ünsiyyət azalır, uşaqlar isə diqqət və qayğıya həsrət qalır. Dayə, uşaq baxıcısı və ya nənə belə ana sevgisini əvəz edə bilmir. Son illərdə müşahidələr göstərir ki, təhsildə qızların fəallığı artıb. Universitetlərə qəbul olunan tələbələr arasında qızların payı yüksəlib, repetitor yanına gedən şagirdlər arasında da onlar üstünlük təşkil edir. Bu, çox sevindirici haldır.

Artıq valideynlər qız övladlarının təhsilinin əhəmiyyətini anlayır, onların da oğlanlar qədər savadlı və müstəqil olmasını istəyirlər. Amma burada bir vacib məqam var: övladın təhsil və ixtisas seçimini valideynin arzusu yox, övladın istəyi və potensialı müəyyən etməlidir. Bu gün cinsi stereotiplərin təsiri zəifləsə də, tam aradan qalxdığını demək çətindir. Qadınların təhsilli və sosial fəal olması cəmiyyət üçün müsbət haldır, lakin bu prosesdə ailə dəyərləri unudulmamalıdır.

Ən ideal vəziyyət tərəzinin hər iki gözünün bərabər olmasıdır. Qadın həm təhsilli, həm də ailəsinə bağlı ola bilər; kişi isə həm ailəsinə qayğı göstərən ata, həm də məsuliyyətli işçi ola bilər. Cəmiyyətin sağlam inkişafı məhz bu qarşılıqlı anlayış və balans üzərində qurulur. Hər məsələdə olduğu kimi, karyera və ailə məsələsində də "qızıl orta"nı tapmaq vacibdir".

***Günel***


8 NOYABR - ZƏFƏR GÜNÜ
MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINI TƏBRİK EDİR, ƏBƏDİ SÜLH VƏ XOŞ GƏLƏCƏK ARZULAYIRIQ!
ZƏFƏRİN ƏBƏDİ OLSUN, AZƏRBAYCAN!
trendyol
Şuşa





# "Şuşanın azad edilməsi müharibənin qırılma nöqtəsi oldu"




"8 noyabr Azərbaycanda Zəfər Günü kimi qeyd olunur. Bu bayram ümumilikdə Azərbaycanın ən yeni tarixinin başlanğıcı kimi qiymətləndirilə bilər. Müstəqillik tariximizə nəzər saldıqda, bir çox uğurların şahidi olmuşuq. Lakin xüsusilə müstəqilliyin ilk illərində – 1990-cı illərdə – Azərbaycanın üzləşdiyi vəziyyət, qarşılaşdığı çətinliklər və gənc dövlətin yükü olduqca böyük idi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Turan Rzayev deyib. Turan Rzayev sözlərinə belə davam edib: "Xüsusilə torpaqlarımızın işğala məruz qalması, müharibənin aktiv fazasının davam etdiyi bir dövrdə Bakıda və ölkənin digər bölgələrində şəxsi maraqların dövlət və milli maraqlardan üstün tutulması vəziyyəti daha da ağırlaşdırdı. Həmin illərdə siyasi sabitlik və milli birliyin olmaması nəticədə torpaq itkisi və ağır məğlubiyyətlərlə nəticələndi.

Bu dövrdə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın taleyini dəyişən dönüş nöqtəsi oldu. Onun rəhbərliyi ilə dövlət quruculuğu prosesində mütəşəkkil bir sistem formalaşdı, müstəqilliyin qorunması və möhkəmləndirilməsi üçün strateji xətt müəyyən edildi. Heydər Əliyevin əsas məqsədi Azərbaycanın gələcək inkişafını təmin edəcək, onu gücləndirəcək və 90-cı illərdə məğlubiyyətə səbəb olan problemləri aradan qaldıracaq dövlət konsepsiyasını yaratmaq idi. Bu istiqamətdə ilk növbədə ordu quruculuğu sahəsində ciddi islahatlar həyata keçirildi. 90-cı illərdəki məğlubiyyətin əsas səbəblərindən biri olan vahid komandanlıq strukturunun olmaması aradan qaldırıldı. Ordu mərkəzləşdirildi, milli və peşəkar kadr hazırlığı gücləndirildi və ordunun mənəvi dayaqları milli dəyərlər üzərində formalaşdırıldı. Bununla yanaşı, diplomatik və siyasi sahələrdə də ardıcıl və düşünülmüş addımlar atıldı.

Heydər Əliyevin ömrü bütün hədəflərin tam reallaşmasına kifayət etməsə də, sevindirici haldır ki, onun siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Son 20 ildən artıq müddətdə Prezident İlham Əliyevin apardığı siyasətin əsas mahiyyətini Azərbaycanın 44 günlük Vətən müharibəsinə hazırlaşdırılması və bu hazırlığın nəticələrinin təmin olunması təşkil edir. Diplomatik, siyasi və hərbi sahələrdə uzunmüddətli, ardıcıl və strateji yanaşma zəfərin əsasını qoydu.

2016-cı ilin Aprel döyüşləri bu qələbənin ilk böyük xəbərçisi oldu. Həmin döyüşlər zamanı az sayda ərazi azad olunsa da, ən vacib məqam Azərbaycan ordusunun və xalqının öz gücünə inamının bərpası idi. Bu döyüşlər göstərdi ki, Azərbaycan ordusu artıq məğlub ordusu deyil və istənilən an qələbə qazanmaq gücündədir. Psixoloji üstünlüyün əldə edilməsi milli ruhun dirçəlişində mühüm rol oynadı. Bu inamın formalaşmasında Mübariz İbrahimov kimi qəhrəmanların şücaəti, həmçinin Ramin Səfərov hadisəsi kimi nümunələr böyük rol oynadı. Azərbaycan əsgəri və zabiti milli ləyaqətini hər şeydən üstün tutduğunu sübut etdi.

Naxçıvan və Tovuz döyüşləri də qələbəyə gedən yolun mühüm mərhələləri oldu. 44 günlük Vətən müharibəsinə qədər Azərbaycan ordusu həm mənəvi, həm texniki, həm də təşkilati cəhətdən tam hazır vəziyyətdə idi. Orduda vahid komandanlıq, ciddi nizam-intizam və yüksək döyüş ruhu mövcud idi. Xalqla iqtidar arasında yaranmış güclü birlik isə bu prosesə əlavə güc verdi.

44 günlük Vətən müharibəsi zamanı Azərbaycan ordusu qısa müddətdə işğal altında olan ərazilərin 80 faizini azad etdi. Xüsusilə Şuşa şəhərinin azad olunması müharibənin taleyini dəyişən əsas strateji qələbə oldu. Müharibənin minimal itkilərlə və maksimal nəticə ilə başa çatması ordumuzun yüksək hazırlığının göstəricisi idi. Bu zəfər həm də beynəlxalq hüququn və BMT qətnamələrinin faktiki icrası demək idi.

Azərbaycan müharibədən sonra da sülh və əməkdaşlıq mesajını davam etdirdi. İşğaldan azad edilən ərazilərdə yaşayan erməni əhalisinin reinteqrasiyası istiqamətində addımlar atıldı, lakin onların böyük hissəsi könüllü şəkildə Ermənistana köçdü. Hazırda həmin torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır, şəhərlər, kəndlər, yollar və infrastruktur yenidən salınır. Bu zəfər Azərbaycan xalqının birliyinin, iradəsinin və qətiyyətinin təzahürüdür. Artıq Azərbaycan müharibədən deyil, sülhdən danışır. Qarabağda həyat yenidən qurulur və gələcək nəsillər üçün daha güclü, təhlükəsiz və firavan vətənin formalaşdırılması təmin olunur. 8 noyabr – Zəfər Günü – yalnız hərbi qələbə deyil, həm də milli ruhun, dövlətçilik düşüncəsinin və birlik ideyasının təntənəsidir".

*Günel Fərzəliyeva*

# ZƏFƏR DASTANI



Valeh Sefiyev
ZƏFƏR DASTANI
(Poema)

***Öz müstəqilliyi və tərəqqisi üçün, öz şöhrətinin ən parlaq illəri üçün Azərbaycanın əbədi borclu olduğu Ulu Öndər Heydər Əlirza oğlu Əliyevin zəka və iradəsinin varisi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin şərəfinə.***

## PROLOQ

Dünya dolaşıb qalıb,
Adamlar çaşıb qalıb.
Bəndik bir təmiz ada ;
Dünya nə olur olsun –
Gülüstan, abad, ya da
Viranə olur olsun,
Qamətimiz şax olub.
Gözlərimiz tox olub,
Əlimiz qabar-qabar.
Nə qonşu tabağında
Bizim tamahımız var.
Nə düşmən qabağında
Əyilmişik, sınmışıq.
Ruzimizi özümüz
Tər töküb qazanmışıq.
Odlarda bərkitmisik
Polad iradəmizi.
Bu gün xalqlar, ölkələr
Necə tanıyır bizi? –
- Yaranışdan bu yana
Yaşayıb kişiyana,
Bir acizə, yetimə,
Yıxılana gülməyən;
Kin-küdurət, xəyanət,
Fitnə-fəsad bilməyən
Çətin, ağır günlərin
Sınanmış yarı, dostu!..
Bir qarın çörək üçün
Kiminsə buyruq qulu,
Əlaltısı, forpostu,
Şaxtalı ayağının
Tozu olmamışıq biz.
Əzəl başdan, binadan
Bizim vüqarımız var.
Bizim Vətən andımız,
Vətən şüarımız var.
Ancaq heç vaxt, heç zaman
Murdar daban yalayan
O murdar haylar kimi
Min bir oyundan çıxıb :
İməkləyib, sürünüb,
Gah itib, gah görünüb
Ordan iy çəkə-çəkə,
Burdan iy çəkə-çəkə
Göz gəzdirib, vurnuxub,
Kola-kosa baş soxub
Ovçuya ov axtaran
Quyruq bulayan tula,
Tazı olmamışıq biz.
Otuz qış ötürmüşük,
Yaz, bahar keçirmişik.
Aslan kimi, şir kimi
Dərin yaralar alıb
Ağrılar keçirmişik. –
Quzu olmamışıq biz.
Çox gəliblər, gediblər,
Çox hədyan danışıblar.
Bizi çox incidiblər,
Çox hədləri aşıblar,
Hoqqalar çıxardıblar.
Bizi hədələyiblər,
Bizə göz ağardıblar,
Barmaq sirkələyiblər...
Halal torpağımızın
Bir qarışını belə,
Qara daşını belə,
Düşmənə təslim etmək?!..
Üzü qara, şərəfsiz
Dünyadan köçüb getmək?!..
Razı olmamışıq biz !
Razı olmamışıq biz !
44 günlük o döyüş...
Bizim canlara dəyən
Oğulların ölümü
Ruhumuzu incidir,
Qəlbimizi ağrıdır...
...Analar əzizimiz,
Dinimiz, imanımız;
Gözümüzün işığı,
Ürəyimiz, canımız.
Ən çox yanan, qan olan
Qovrulub, büryan olan
Anaların bağrıdır.
Bir gecənin içində
Analar neçə dəfə
Ağır yuxular görür:
Görür, oğlu can verir!-
Yuxusu qara gəlir ;
Öz qara yuxusunda
Analar fikrə gedir,
Yəqinlik hasil edir,
Qəti qərara gəlir :
- Oğulların ölümü
Həqiqidir, doğrudur !
Analar bu yuxuya
İnanmaq istəmirlər.
Tez, hövlnak oyanıb,
Sağa, sola boylanıb,
Oğul da gözləmirlər.
Haldan-hala düşürlər:
Huş aparır, yatırlar.
Analar yuxuda da
Dərdə, qəmə batırlar.
...Bir dərd səni oxşasın,
Əzizləsin ölüncə. –
İnsan necə yaşasın?
Bundan artıq işgəncə?!..
Nələrə dözmür insan?!..
Haqdan, haqq dərgahından
Biz daha nə istəyək?
Nə təmənna eləyək?!..
"...Barılar sökülləcək,
Saraylar tikiləcək.
Ölməyib, mənim oğlum
Arxayınam gələcək.
Xonça bəzəyəcəyəm,
Onu gözləyəcəyəm.
Mən elçi gedəcəyəm.
Oğlumu nişanlayıb
Toyunu edəcəyəm.
Gəlin gətirəcəyəm.
Mən nəvə görəcəyəm,
Nəvə böyüdəcəyəm.
Bir anda neçə dəfə
Onu bağrıma basib
Oxşayıb öpə-öpə:
"Mübarək qədəminə
Qurbanam!"-deyəcəyəm.
Mən nəvə görəcəyəm,
Oğlum "Ata!" olcaq.
Nəvə böyüdəcəyəm,
Evim nurla dolacaq ..."
... Xəyal edir analar.
Məlal edir analar.
Bu yollarda, izlərdə
Dərdin xurcunu dolmur,
Taqət qalmır dizlərdə.
Bir həyat əlaməti,
Nişanəsi də olmur
Pərişan bənizlərdə.
Əlimiz çatmır ələ.
Göy gurlayır, ün düşür,
Ömür qurtarmır hələ.
Ovsunlanıb elə bil, -
Günlər, aylar ötüşür,
Dolaşır, düyün düşür,
Saya, hesaba gəlmir.
Damarında qan donur.
Kirpiyinə şeh qonur. –
Analar yasda, toyda
Hey düşünür, daşınır,
Ürəyinə bir an da
Dinclik, toxtaqlıq vermir,
Iynənin ucu boyda
Ümid işığı görmür,
Təsəlli tapa bilmir.
... Xıncım-xıncım etmişik
Mənfur düşmənimizi.–
Dünyanı sel apara
Çovğun, qar tutmaz bizi
Qış keçib, gəlib bahar,
Ömür sürməyə nə var?!..
Ancaq bizim Analar
Şəhid balalarını
Unuda bilmirlər ki!
Nə üçün ağlayırlar? –
Onu da bilmirlər ki!
Bu gün belə olurlar,
Sabah elə olurlar.
Şirin yuxu bilmirlər,
Oturub dincəlmirlər.
Analar yaşamır ki!..
Həsrətin girdabında
Onlar ayaq üstədir.
Onların gözü yolda,
Qulağı da səsdədir ...
***
... Çox əzablar çəkmişik,
Bürüzə verməmişik,-
Qəlbimizdə ağlayıb,
Qəlbimizdə çökmüşük.
İkibaşlı qartalın
Sinəmizdə oturub
Canımızı diddiyi,
Qanımızı içdiyi
O dəhşətli zamanlar...
Qanlı 20 Yanvar !..
"Şanlı", "böyük", "qüdrətli",
"Möhtəşəm", "əzəmətli"
İmperiya "işığına" –
Bir bayrağın altında
Ayrı-ayrı millətlər,
Xalqlar "qardaşlığına"
Itən inam, etibar.
Əbədi damğalanan,
Puç olan etiqadlar;
Ürəyimizdən qopan
Nifrət saçan fəryadlar...
Əlacımız nə idi? –
O dar gündə haraya
Əlimiz çatırdı ki ?
Dünya namərdləşmişdi!
Kim yetişdi harya ?
Qanımız batırdı ki!..
Alnımız qırış-qırış,
Başımız aşağıydı.
Kökündən yox olurduq!
Qəzəbdən boğulurduq,
Qisas ala bilmirdik –
Nəfəs ala bilmirdik,
Çatmırdı havamız da;
Şöhrəti, şanı ilə
Dünən öyündüyümüz,
Haqq-ədalət əhdinə
Çox, çox güvəndiyimiz,
Başına döndüyümüz,
Çiyni Ağ göyərçinli
"Qızıl" Moskovamız da
Bu gün qan çanağıydı.
Yaxşı-yaman günlərdə
Qol-qola gəzdiyimiz,
"Can!" deyib, "can!" eşidib
Duz-çörək kəsdiyimiz
Qardaşımız deyildi,
Sirdaşımız deyildi;
Üstümüzə tank sürən,
Qoşun çəkən, yeriyən,
Gözünü qan bürüyən
Qatı düşmən, yağıydı.
Uşaq-böyük bilmirdi,
Yetəni haqlayırdı. –
Günahsız insanları,
Silahsız insanları
Avtomatlar biçirdi,
Tanklar ayaqlayırdı.
Bu necə vicdansızlıq,
Amansız qərar oldu?!..
Bu gen, işıqlı dünya
Başımıza dar oldu
Yaralı Aslan kimi
Yaladıq qanımızı.
Bir yer tapa bilmədik
Qoymağa canımızı.
Gərildi əsəbimiz!..
Qismətimiz beləymiş,
Bu imiş nəsibimiz...
Yenidın barışaqmı,
Qaynayıb-qarışaqmı?!..
Necə qaytarmaq olar
O ruhu, o inamı?!..
Xalqımın haqq səsinə
Bir bayrağın altında
70 illik dostluğun,
Qardaşlığın "sovqatı",
"Hədiyyəsi", "ənamı"
Qırğın oldu, qan oldu.
Bakımızın ortası
Şəhidlər Xiyabanı –
Bir məzaristan oldu.
***
...Bu gün səbirli olmaq,
Kamil, tədbirli olmaq,
Hələ sözü çox açıb
Bələmək lazımdırsa;
Bunu elə yox, belə
Eləmək lazımdırsa;
Hələ çox fikirləşmək,
Qulaq asıb eşitmək,
Dinləmək lazımdırsa;
Yoxsa, hücuma keçmək,
Düşməni qabaqlamaq,
Önləmək lazımdırsa;
Daha nələr etməli,
Nələr etməməliyik?!..
Hara üz tutmalıyıq,
Hara getməməliyik?!..
Bizi də ana doğub!..
Kimin yadından çıxıb? –
Qırmızı dönüklüklər,
Rişxəndlər, istehzalar,
Qadalı onilliklər,
Cinayətlər, cəzalar.
Qırmızı işgəncələr, -
Bədbəxtliklər, nalələr,
Bənzərsiz viranələr;
Qırmizi müsibətlər,
Saralıb-solan üzrlər.
Nə ağırdır köləlik!..
Çiynimizdə ağır yük,
Boynumuzda minnətlər,
Yorğun, bükülən dizlər,
Masqaralar, tənələr...
Ağır keçdi sənələr,-
37-ni gördük,
Zindanlarda çürüdük,
Sürgünlərdə can verdik.
Qalmadı qeyrət çəkən
Bir başıpapaqlımız.
Gözümüz baxa-baxa
Haqsız çıxdı haqlımız.
Qapımız bağlı qaldı,
Sinəmiz dağlı qaldı...
...Hovu asan çəkilmir,
Sağalıb üzə gəlmir,
Yaramız çox dərindi.
Hökmünü vermiş zaman,
Tilsimlər sınır indi.
Dəyirman tərsəsinə
Dönür, fırlanır indi.
Dünən sönən ocaqlar
Gurhagur yanır bu gün.
Sahibsiz deyilik biz,
Xöşbəxtdir ellərimiz.
Torpağı,daşı gülür
Günəşli yurdumuzun.
Ölkəmizin başında
Müzəffər Ordumuzun
Ali Baş Komandanı
Rəhbər dayanır bu gün.
Qayıda bilməz daha
O şərəfsiz zamanlar.
Qara bir ilan kimi
Qəlbimizi sancanlar
Bizdən gen dayansınlar,
Heç nə soruşmasınlar.
...Köhnə dostlar, qardaşlar!
Silahdaşlar, sirdaşlar! –
Qanımızla yazmışıq
Həyat kodeksmizi.
Tükənibdir səbrimiz,
Yaxamızdan əl çəkin,
Rahat buraxın bizi.
Vicdanı itirərək,
Qolumuza girərək,
Qardaş!.. sirdaş!.. deyərək
Bizə az tumar vurun -
Bizə az hiylə qurun.
Çox yanaşı getmişik –
Sizi çox eşitmişik.
Yükünüzü daşıyıb,
Sizin özünüzü də
Sevə-sevə oxşayıb
Bağrımıza basmışıq. –
Qanımız çıxıb dizə.
Min lənət rəddinizə,
Nəsilbənəslinizə.
Nə etibarsızsınız?..
Siz nə üçün varsınız?!..
İnsanlıq bilmirsiniz!..
Nədir axtardığınız,
Məramınız, qəsdiniz?
Yırtıcılıq etməkdən
Məmnun, bihuş, məstsiniz.
Hələ də ovunmayıb
Ağlayır ürəyimiz.
Haramdır çörəyimiz
Sizə boyun əyənə. –
Namərd qılıncınızın
Altından keçir yenə.
O daha bizdən deyil.
Bizim tərəfimizdən,
Şərəfimizdən deyil.
... Tərpənsə ağır daşlar
Çox yuxular qarışar,
Çatılar sarı qaşlar.
Yırtıcılıq canında, -
İşğalçının yanında
Bizim nə işimiz var?!
Çəkdiyimiz müsübət
Olmadımı yetərli,
Etmədimi kifayət?!..
Yenə, yenə doğranaq,
Ayaqlanaq, budanaq?!..
Bəlkə bir az çəkinək,
Həya edək, utanaq,
Lal olaq, danışmayaq
Bu barədə, bu haqda?!..
Çox görmüşük bu saxda
Nəvazişi, sığalı,
Təşəkkürü, "sağ ol"u.
...Ruhumuzu sarsıdan
Məhrumiyyətlər dolu
İllər keçib aradan.
Heç ağıla gəlməyən,
Sərhəd, hüdud bilməyən
Erməni barbarlığı...
Erməni murdarlığı...
Kəmərlərdə can verən,
Balaca biləkləri,
Qırılmış sümükləri
Bu vəhşət yuvasını,
Rəzalət kahasını
Dünyaya nişan verən
Bizim o qotaz-qotaz
Körpələrin naləsi,
Əzablı hekayəsi:

Ardı Səh. 11

**Əvvəli-Səh-10**

...Yaradan özü bizə
Səbir əta eləsin,
Dözüm versin, tab versin.
Mənim bu sualıma
İşimizə qarışan,
Artıq - əskik danışan
Erkəyi erkək ərli,
Yubkalı, manikürli,
Dodaqları boyalı,
”Çox abırlı, həyalı”
”Bacılar” cavab versin:
-Xalqımın ilk əsgəri,
Xalqımın ilk şəhidi,
Ümidsizlik fəryadı
Dünyaları bürüyən,
O, kəmərdə çürüyən
Bizim məsum körpənin
Nə günahı var idi?!..
Bağça uşağı idi:
Onun bu gen dünyadan
Umacağı nə idi?!
O bir evin, ocağın,
Xoşbəxtlik tacı idi.
Bir tikə mehribanlıq,
Sevgi möhtacı idi.
Səhərdən axşamacan
Özü kimi balaca
Körpə dostları ilə
Atılıb-düşürdü o.
Gülüb-güləşirdi o.
O hələ dünya nədir,
Sülh nədir, dava nədir? -
Bilmirdi, anlamırdı.
O günəşə, işığa
Çıxmağa tələsirdi.
Oyuncaq maşınını,
Kuklasını gəzirdi.
Ölüm nədir bilmirdi,
Ölümə inanmırdı...
O niyə ölməliydi?
...Napalyon dənələri!
Napalyon gənələri !
Nə etdiniz onda siz?
O ”bayram” şərəfinə
Bəyanatlar verdiniz;
”Dünlyanın məsələsi”
Həll olundu!-dediniz.
Heç cınqırımızı da
Çıxarda bilmədik biz
Murdar üzünüz güldü:
Nə idi niyyətiniz?-
Anlaya bilmədiniz:
Şər yuvası o yerdə
Qaranlıq kəmərlərdə
O körpələr ölmədi!-
Vicdan, İnsanlıq öldü.-
Murdar üzünüz güldü.
****
...Son nöqtələr olmadı.
O dəhşətli zamanlar
Daha nələr olmadı?
... Xocalı faciəsi!-
Erməni barbarlığı,
Erməni murdarlığı.
Günün günortasında
Dünyanın ortasında
Dünyanı heç nə sayıb,
Allahın özündən də
Çəkinməyib, qorxmayıb,
Əlindən, ayağından
Divara mismarlayıb,
On üç yaşlı qızımın –
Şirin-şəkər balamın,
O südəmər balamın
Diri-diri alnının,
Sinəsinin, qarnının
Dərisini soydular,
Gözlərini oydular.
Aman Allah!.. Dad Allah! –
Mənim körpə balamı
Gör nə günə qoydular?!..
Balamın əzabından
Kaftarlı, fahişəli
Haylar həzz alırdılar.
O dərisi soyulmuş,
O gözləri oyulmuş
Balam əldən düşürdü,
Haldan, dildən düşürdü,
Onlar əl çalırdılar.
Balam ölənə kimi. –
Soyulmuş bədəninin
Sulu-sulu son qətrə
Qanı gələnə kimi
Şərabdan içirdilər.
Xumarlanıb, keflənib
Böyük Ermənistanın –
Zəhərli bir xülyanın
Yelinə uçurdular.
O murdar, rəzil haylar
Bir-birinə göz vurub,
Saatlarını qurub
Saniyə sayırdılar,
Dəqiqə sayırdılar.
Mənim südəmər balam
Ağrıdan qıvrılırdı ;
Sahibsiz, boş göylərə
Məlul-məlul boylanıb,
Baxıb, göz dolandırıb
Ağlayıb qışqırırdı.
Yeddi dəqiqə sonra
Canını tapşırırdı.
”Tamaşaçı” qatillər
Xaçaturlar, aramalar...
O fahişə əmənlər,
O nüftəsi haramlar,
Xorultusu böhtan, şər
O murdarlar, iyrənclər,
Donuzdan törəmələr
Tüpürüb bıçağına,
Balamı tikə-tikə
Doğrayıb tökürdülər
İtlərin qabağına ...
Yeddi dəqiqə!.. Bir az
O yan, bu yan olsa da
Nəticə aydın idi,
Hesabat dəqiq idi.
Bütün türk dünyasında
Erməni vahiməsi,
Xofu yaratmaq üçün,
Məqsədə çatmaq üçün
Bu da yaxşı təcrübə,
Tədqiqat, tədqiq idi.
Avropalı cənablar
Bu qanlı faciəni
Kitablardan oxuyub-
Çiçək kimi qoxuyub
Məst olub gedirdilər.
Darılmayıb, gör hələ
Oynayıb gülə-gülə
Nə xəyal edirdilər :
Dünyanın ən humanist,
Xeyirxah, ədalətli
Xalqı olduqlarına ;
Guya hamıdan artıq
Yetkinləşib kamala,
Ağla dolduqlarına
Əminlikdən dolayı
Şadyanalıq eləyib
Şərəfyab olurdular
Feyzyab olurdular.
Onlar, o imansızlar,
Vicdansızlar, qansızlar
Nə göz yaşı axıdıb,
Nə də saç yolurdular.
****
Ay ”humanist, sülhpərvər,
Ləyaqətli, xilaskar”
Avropalı cənablar!
Sizin də gözünüz var,
Seçin ağı qaradan
Budur, budur, bax budur
İnsanlığı sarsıdan.
Heç ağıla gəlməyən
Sərhəd, hüdud bilməyən
Erməni barbarlığı,
Erməni murdarlığı.
Bəşərə təhlükədir,
İnsanlığa ləkədir
Erməni mövcudluğu,
Gerçəkliyi, varlığı.
Avropalı cənablar!
Cənab Avropalılar!
Çox gözəl bilirsiniz
Kim yolluyuq, biz kimik?-
Biz sizdən çox qədimik.
Kökümüz, əslimiz var.
Tarixlərin şöhrəti
Qəhrəman nəslimiz var.
Dönə-dönə tapşırıb
Demisiniz, bilirik.
Biz də ömür sürmüşük
Görə-görə gəlirik.
Ermənilər ”bacınız”,
Turan eli özgədir.
Onda buyurun, baxın :
Bu barbarlıq, murdarlıq
Sizin üçün güzgüdür.
Özünüzü tanıyın ;
Dünya zarafat deyil
Avropalı cənablar !..
Sağı, solu görməyib ;
Ölümlərə, qanlara,
Bir nəzər yetirməyib
Boş, mənasız, faydasız
Söz danışmağa nə var ?
Təmiz, xoş niyyət ilə
Havadarlıq eləmək !.
Hamıya rahat həyat,
Firavanlıq diləmək !-
Kim alqışlamaz bunu?..
Dünya yaxşı tanıyır
Kimin kim olduğunu.
Bu qarışıq zamanda,
Bu dolaşıq zamanda
Avropalı cənablar !
İnsafın, mürüvvətin
Harada qaldığını,
Bozarmış, köhnə, nimdaş
Qəlbinin yırtığından
Harada saldığını
Vecinə almayan var.
Erməni tənha deyil,
Yazıq, binava deyil
Köhnə ”bacılarsınız”,
Bir-birinizə həyan,
Doğma, əzizlərsiniz.
Havadarlıq eləyib
Qəddarı daha qəddar,
Murdarı daha murdar
Eləyən sizlərsiniz.
Avropalı cənablar !
Bu barbarlıq, murdarlıq,
Bu cəlladlıq, qəddarlıq
Nə birinci kərədir,
Nə sonuncu kərədir,
On üç yaşlı balamın
Əzablarına görə
Mənim nə nifrətim var,
Hamısı sizlərədir.
Avropalı cənablar !
Gözünüzün önündə
Körpələr şaqqalanır,
Tikə-tikə doğranır. –
Dayan deyən olmur heç.
Siz insan deyilsiniz ! –
Vicdanınız ağrımır,
Gözləriniz dolmur heç.
Söz ağlayır dilimdə ;
Hirsimdən, acığımdan
Qələm tutmur əlim də.
Baxıram bir kənardan.
Danışan, haray salan,
Fəryad edən ürəkdir :
-Avropalı cənablar !
Sizi qınamıram mən.
Namus, qeyrət, ləyaqət
Gözləmirəm sizlərdən .
Türkün kim olduğunu,
Necə təmiz, pak olan
Müqəddəs bir anadan
Kişi doğulduğunu
Duyub-dərk etmək üçün,
Kamala yetmək üçün
Sizə zaman gərəkdir.
Hələ sizə çox sınaq,
Çox imtahan gərəkdir.
Ancaq bu gün, bu saat
Sizə haramdır həyat !
Avropalı cənablar !
Tanrı möhlət versəydi,
İmkan, qüvvət versəydi
On üç yaşlı qızımın –
Şirin-şəkər balamın,
O südəmər balamın
Əzablarına əvəz
Başınıza göylərdən
Atəş, od ələyərdim.
Dünyanın bir küncünə -
Ya dərya kənarına,
Ya da bir cəngəlliyə
Anlaqsız, quduz olmuş
Heyvan sürüsü kimi
Toplayıb, yığıb sizi,
Gözlərimi yumub mən,
Bir anda uf demədən
Kəsərdim nəslinizi.
Yaradana şükürlər,
Dualar eləyərdim.
Avropalı cənablar !
Mənim adətim deyil –
Fürsəti bada verib,
Yarımçılıq iş görüb
Həyatımı kəm etmək :
Bir dərənin dibində
Çürüdüb leşinizi
Qurda-quşa yem etmək
Kaş qismətim olaydı. –
O qüdrətim olaydı !
Yenə, yenə, yenə də
Soyumazdı ürəyim,
Açılmazdı çiçəyim.
****
Şöhrətimiz, adımız...
Qələbə paradımız...
Dünyada daşdan keçən
Sözümüz, buyruğumuz.
Şərin başını yaran

**Öz DƏMİR YUMRUĞUMUZ...**

Guya avropalılar
Dünyaya sahib imiş.
Hər xırda işdə belə,
Ağır görüşdə belə
Guya çox vacib imiş
Onların fikri, rəyi.
Nəyi qadağan edib
Nəyə doğru deməyi.
Avropalı cənablar
Dünyanı zərrə-zərrə
Mikroskopdan keçirib, -
Sağa nəzər yetirib
Sola diqqət edirlər.
Guya qeyrətə gəlib,
Özlərinə borc bilib
Hamını ədalətə,
İnsafa, mürüvvətə,
İnsanlığa, şəfqətə
Haqqa dəvət edirlər.-
Nə böyük riyakarlıq?!..
Rəzalət, fitnəkarlıq?!..
... Bu dünyanın yiyəsi
İlahi, nə çox imiş?!..
Xəbərimiz yox imiş :
Deyirlər: güllə dəyib
Kilsənin suvağına,
Kərpicinə, damına.
Onun burnu qanayıb,
Ayağına daş dəyib -
Bərk dəyib, yavaş dəyib?
Sorğu, sual edirlər,
Xiffət, məlal edirlər
Üstümüzə gəlirlər :
- Düz yoldan çıxmısınız.,
Siz əyri baxmısınız
Dünyanın adamına.
”Düz yoldan çıxmısınız,
Siz əyri baxmısınız
Dünyanın adamına...
Sizin bir güllə dəyib
Kilsənin suvağına,
Kərpicinə, damına...”
- Nitqə bax, çıxışa bax!..
Yerə, göyə sığmayan
Humanist baxışa bax!..
Avropalı ”qoçular”
O qaragüruhçular
Bizim xalqı, milləti
Nə hesab eləyirlər?
Bizim xaraba qalmış,
Viran olmuş, dağılmış
Yurdları, yuvaları,
Kəndləri, obaları
Onlar görmürlər məgər?!..
Ayıq-sayıqlığını
Heç zaman itirməyib,
Düşmən üz bozartmasa
Xeyirxah, mərd əlinə
Bir daş da götürməyib
Bizim Turan elləri.
Nə yuvanın quşudur,
Kimdir Avropalılar? –
- Dünyanın bayquşudur!
Xarabazarlıq gəzir.
Qocalıb, dizi əsir.
Onların qulağı kar,
Huşu itib, gözü kor!..
Nə uzundur dilləri?!..
Ehtiyacları olsa
Onlar böyük tarixçi,
Odlu, alovlu natiq,
Mütəfəkkir, navator.
Bəs nə baş verib indi?
Külək hayandan əsdi?-
Qərblilər olub xumar, -
Dünyadan xəbərsizdir,
Tarixçi deyil onlar.
Məstlikdən ayılmayıb, -
Vərganı selə verib,
Onlar çoxdan itirib
Ərzin cəhətlərini.
Tanrı rəva bilmədi,
Nazildi, üzülmədi
Haqq tapdı öz yerini.
Qərbin xuliqanlığı,
Hökmü, hökmranlığı
Sarsıldı, sona yetdi.
Tapındı həqiqətə,
Vicdana, ləyaqətə,
Dünya ayrı bir səmtə
Üz tutdu, güzar etdi.
Xumar gözlər süzülür,
Mırıldayırlar hələ:
Kilsənin damı belə,
Suvağı elə getdi!..
Utanmaq, xəcalət yox.
Abır, həya, ismət yox.
Bu boyda kainatda
Gözləri yaşlı, nəmli,
Tənha, köməksiz qalan,
Diri-diri soyulan
On üç yaşlı balamın
Əzablarına görə
Gen dünya başıma dar.
Mənim nə yaşayışım
Nə günüm, rüzgarım var,
Sınıb yanıma düşüb
Mənim qolum, qanadım.
Zəhərdir, zəhrimardır
Bütün ömrüm, həyatım.
****
Xocalıdan bu yana
Yuxum ərşə çəkilib.
Sakit dura bilmirəm,
Dinc otura bilmirəm.
Yuvasız bir qartalam,
Yuva qura bilmirəm -
Qəzəbim aşıb-daşır.
İndi zaman başqadır.
İndi dövran başqadır.
Düşmən üçün qorxudur,
Vahimədir kölgəmiz.
Turan kitabımızda -
Bizim hesabımızda
Hər doğulan körpəmiz
Beşik yaşında belə
Qəhrəman, qədd-qamətli,
Tufanlı, cəsarətli
Qeyrət çəkən kişidir.
Xəbər çatıb mənə də
Qulaqlarım eşidir :
Bizim Turan elində
Çoxdan yada düşməyən,
Köhnəlmiş, unudulmuş
Bir söz-söhbət dolaşır. -
Qızışır, tüğyan edir.
Dünyanı silkələyir. -
Yapışıb yaxasından
Bir dön geri bax deyir.
Gizlin söhbətimiz yox.
Ucuz qeybətimiz yox.
Üz-üzə dayanmışıq,
Göz-gözə dayanmışıq.
Bu elin, bu obanın
Mən də bir yazan əli,
Aydın danışan dili.
Dünya, sözüm sənədir :
- Bizi, özünü tanı !
Etibar, vicdan hanı ?
Bu namərdlik, nankorluq,
Bu kəmfürsətlik nədir ?
Bu biqeyrətlik nədir ?-
Qəzəbim aşıb-daşır.
Bizim Turan elində
Bir söz-söhbət dolaşır.
Qızışır tüğyan edir,
Silahlı üsyan edir:
- Deyirlər Əmir Teymur
Buralardan keçəndə,
Dəstəmazını alıb,
Namazını da qılıb,
Kefi kök, damağı çağ
Bulaqdan su içəndə,
Erməni casusundan
Necə murdarlıq görüb,
Bütün ermənilərin
Qətlinə fərman verib.
Əmirin qərarından
Göylər də razı qalıb.
Yer üzünə, dünyaya
Gur işıq, nur ələyib.
Əmirin öz anası
Ordunun qabağında
Ləçək açıb Əmirdən
İnsaf, imdad diləyib.
Türk oğlu anasının
Sözünü, ricasını
Göylərdən, səmalardan
Aşağı endirməyib –
Ananı sındırmayıb.
Bunu öz qüdrətinə,
Şanına, şövkətinə,
Hökmdar qüruruna
Əmir yaraşdırmayıb. -
Murdar ermənilərin
Hamısını qırmayıb
...Avropalı cənablar!..
Yuxumuzda görürük
Yaşadığımız dünya –
Ərz əmin-amanlıqdır!..
Şirindirmi bu xülya?
Avropalı cənablar!
Duyuram, sizin üçün
Çox suala cavablar
Hələ də qaranlıqdır.
Tarixin sərt qanunu
Ilgəyində saxlayıb
Hamımızın boynunu.
Batırıq iynə kimi
O xayin gözünüzə -
Kitablar açıb, sizə
Vicdan dərsi veririk.
Yaşamaq öyrədirik,
Doğru yol göstəririk.
Aydın, sakit üfiqlər,
Toy-bayram istəyirik.
Xoş rəftar, şad, gülər üz,
Ehtiram istəyirik,
Başımızın üstündə
Qara yellər əsməsin.
Ev tiksin, ev yıxmağa
Insanlar tələsməsin.
Müharibə eləmək
Vəşilik, yırtıcılıq,
Qırğın, qan tökmək deyil
Varidat, müftə sərvət,
Xəzinə, dollar qulu
Bəzi axmaqlar üçün,
Dəyyus, alçaqlar üçün
Gəzinti, istirahət, -
Turizimdir elə bil.
Ordan bura gəlirlər,
Burdan ora gedirlər.
Adamlar öldürürlər –
Ümüdlər söndürürlər,
Ölkələr talayırlar –
Guya böyük, tarixi
Qəhrəmanlıq edirlər.
...Biz Adəm ovladıyıq!
Qədəm-qədəm adlayıb
Biz eralar aşmışıq.
Nadanlıq eləmişik –
Eyni süfrə başından
Qalxıb qılınclaşmışıq.
Başımız kəsilibdir,
Qanımız göl olubdur.
Bəşəriyyət anadan
Yenidən doğulubdur.
Yenidən göz açmamış
Bələkdə boğulubdur.
Üzü bəriyik bir az.
Belə ibtidailik,
Cahillik, xamlıq olmaz.
Əski əyyamlıq olmaz.
Odur, ”gözünüz aydın!” –
Qoruyaq bəd nəzərdən,
Qoymayaq gəlsin gözə, -
Başına yığışıb el,
Qol açıb süzə-süzə
Şəhid olan Oğluna
Toy çaldırır bir Ana!

*Ardı Səh. 12*

**Əvvəli-Səh-11**

O çarəsiz ananın
Hava gəlib başına.
Özü inana bilmir
Özünün təlaşına.
Nə təhər ovundurmaq,
Nə demək olar ona?!..
Düşmənimiz də bu gün
"Dost!"- çağırsın adını.
Birlikdə yola çıxaq,
İşığa, nura doğru
Halal yolçuluq edək,
Qulaq verək, eşidək
Bəşərin fəryadını:
- Avropalı cənablar!
Bəsdir qanlar, əzablar,
Ölümlər, iztirablar!..
Yolunuzu azmayın ;
Ona papaq atmayın,
Buna quyu qazmayın;
Təbiətin, həyatın
Nizamını pozmayın.
Dünya hamımızındır!..
O dumanlı, çiskinli
London küçələri də,
Piterin gündüz kimi
Bəyaz gecələri də,
Kanada da bizimdir,
Panama da bizimdir...
Dünya hamımızındır!..
Bizim bir kürəmiz var,
Çox şükür, bəsimizdir.
Təzədir donumuz da.
Tabağımız da dolu, -
Urfalıq unumuz da,
Bir qismət, bir tikə də
Halal çörəyimiz var...
Bizim bir kürəmiz var
...Bəhərsiz torpağımız,
Daşımız ola bilər;
Tumarsız saqqalımız,
Başımız ola bilər;
Gözümüzün üstündə
Qaşımız ola bilər. –
Gözlər yaşla dolmasın!
Heç bir zaman olmasın
Qanlı, qadalı günlər !
Əl tutub görüşsünlər –
Adamlar bir-birindən
Vəfa, etibar görsün.
Yarpaq da bükülməsin,
Qovrulub ütülməsin.
Ağaclar da vaxtında
Çiçək açsın, bar versin.
Bar tutan budaqların
Başları yerə dəysin.
Mübahlıq, bolluq olsun;
Küfr danışmasınlar –
İnsanlar yaradana
Şükran duyğusu ilə
Səcdə etsin, baş əysin.
...Avropalı cənablar!
Çıxmasın yadınızdan:
Mənfur ermənilərin
Kökünü kəsmək üçün
Əlimizdə bir zaman
Fürsət, imkan olsa da
Insanlıq etmişik biz. –
Vicdanın hökmü ilə
Güzəştə getmişik biz.
Unutmayın bir an da:
Döyüş, hərb meydanında
Türklər at oynadanda
Kim idiniz siz onda?!..
Avropalı cənablar!
Biz yaxşı tanıyırıq
Kimin kim olduğunu.
Kim dana bilər bunu? –
Eraları titrədən,
Dünyanın bu başından
O başına əzmlə
Qoşun çəkən, yeridən
Əcdadımız, kökümüz;
Aydan arılığımız,
Sudan duruluğumuz,
Dağdan ağırlığımız,
Nüfuzumuz, çəkimiz;
Bu şan, bu şövkət ilə,
Bu güc, bu qüdrət ilə
Namərdlik etmirik biz,
Fitvaya getmirik biz.
Uymayıb cəhalətə, –
Hər xalqa, hər millətə
Xoş günlər diləyirik.
Ancaq bir türk olaraq
Etiraf eləyirik:
- Biz yaranandan bəri, -
Xəlq olunandan bəri
Kin, nifrət bilməmişik,
Ədavət bilməmişik,
Xəyanət bilməmişik.
Olmamışıq nainsaf,
Yaşamışıq təmiz, saf !
Müxtəsəri, bir kəlmə:
Zalımlıq damarımız
Yoxdur anadan gəlmə.
Bağışlamaq, rəhm etmək!..
Düşmənlə də dil tapıb,
Yol tapıb yola getmək!..
Xeyrə-şərə yanaşı.
Birgə, qol-qola getmək!..
Bağışlamaq, rəhm etmək!..
...Bu gün özüm özümlə
Haqqım var hesab çəkim.
Bütün varlığımıza,
Mənliyimizə hakim
Könül rahatlığımız,
Bizim ruhumuz budur.
"Bəşəri günahımız" –
Qaranlıq sabahımız,
Sağalmayan yaramız,
Acı, bəd rüzgarımız,
Qara yuxumuz budur.
Söhbət budur, söz budur
Doğru budur, düz budur.
Bu eşq, bu amal ilə
Gedirik bu yol ilə.
Düşsək də min bəlaya,
Şükür sənə, Xudaya! -
Imdadımıza çatıb –
Kömək əli uzadıb
Yapışıb qolumuzdan
Saxlama yolumuzdan,
Çox xahiş eləyirik.
Sənin saxavətindən,
Sənin kəramətindən
Bu gün də biz hamımız
Qocamız, cavanımız
Mehrə, mehribanlığa,
Haqqa, firavanlığa,
Bəşərə, insanlığa
Sitayiş eləyirik...
***
... Son nöqtələr olmadı,
O dəhşətli zamanlar
Daha nələr olmadı?!
... Torpaqların işğalı,
Bir milyon qaçqınımız.
...Cəllad əsirliyində
Neçə gəlin, neçə qız...
***
(Belə danışan yerdə,
Elə danışan yerdə
Qoy məni vurğun vursun,
Dilim, ağzım qurusun.)
...Düşmən əsirliyində,
"Gəlin-qız" deyiləndə
Əskik oğullar kimi
Dünya bizə baxırdı.
Qeyrət bizi boğurdu.
Belə yaşamaq bizə
Ölümdən də betərdi.
... Məqam çatdı, yetişdi,
Nə fürsət axtarıldı,
Nə "İZİN" yada düşdü.
Ali Baş Komandanım
Əmr etdi, qərar verdi.
Komandan alqışlandı,
Qanlı döyüş başlandı.
Ağ qanadlı mələklər,
Göylərdə dövrə vurdu.
Ayıq-sayıq 44 gün,
Başımızın üstündə
Burda, keşikdə durdu.
Yağı nəfəs dərməmiş,
İlk saatdan, ilk andan,
Ağır toplar gurladı,
Düşmən düşdü amandan...
Özü amansızlığın
Ocağı ola-ola,
Gözləri dola-dola
Başını daşa vurub
Yalvarıb, boyun burub,
Bizdən aman istədi.
Bir az zaman istədi.
Yenə payəndaz olub,
Sərilib palaz olub
Onun-bunun dizinin,
Ən murdar əzasinin,
Əsbabının altında
Hər alçaqlığa getdi.-
Alçaqlıqdan doylmadı.
Rüsvayi-cahan etdi,
Səsində batdı adı.
O ki var murdarladı,
Işıqucu qoymadı
Özündə, əcdadında.
Baş yolub, yaxa cırıb,
Qulun kimi çığırıb:
Afrika çaqqalından,
Hindistn baqqalından ,
Tayqa bataqlığından,
Paris bacılığından,
Amazon meşəsindən,
Fars-İran nəşəsindən –
Dünyanın ən iyəsiz,
Təsbehli, əmmaməli,
Əngəlli guşəsindən
Qılınc, qırmanc istədi.
Ümidi boşa çəxdı.
Əli qaldı havada.
Daha da gərginləşdi,
Şiddətləndi dava da.
Ağ tuman-köynək geyib
"Təmiz, pak oldum!"-deyib
Dikə, yoxuşa çıxdı.
Gözünü göyə dikib,
Dönə-dönə xaç çəkib,
Canını üzə-üzə
Yalvar-yaxar eləyib
O, gözəgörünməzə
Ondan əlac istədi,
Qılınc, qırmanc istədi...
***
...Hərbi komissarlıqda,
Azərbaycan bayrağı
Şəstlə dalğalanırdı.
Ürəklər coşqun idi,
Gözlərdə od yanırdı.
İntizamla, nizamla,
Qətiyyətlə, inamla
Növbələr uzanırdı.
Oğullar tələsirdi –
Düşmənə zərbə vurub
Qələbələr çalırdı,
Zəfərlər qazanırdı.
***
Bizim polad sinəli
Igid oğullarımız
Silaha sarıldılar,
Sırada dayandılar.
Nə qarda üşüdülər,
Nə şaxtada dondular.
Cəsur ürəklərinin
Oduna qızındılar.
Mətin addımladılar,
Döyüşə atıldılar.
Bizim cəngavərlərin
Şimşək çaxdı gözündə,
Araz daşdı qəlbində,
Kür kükrədi qolunda.
Vətən, millət yolunda
Onlar tək-tək öldülər,
Tək-tək həlak oldular!
Tarixi keşməkeşli-
Təlatümlü, qovğalı,
Möhtərəm, qədim, ulu
Xalqımıza əbədi
Ölməzlik qazandılar. –
Əbədi bəxtiyarlıq,
Şərəf-şan qazandılar.
Qüdrətli Azərbaycan! -
Əsrin hesablaşdığı
Yurd, ünvan qazandılar.
Onlar tək-tək öldülər! -
O ərlər, o igidlər,
O qəhraman şəhidlər
Bizə ruh, həyat verib ,
Nəfəs, qol-qanad verib,
Xəcalət tərimizi
Alnımızdan sildilər.
****
Qarı düşmənlərimiz
Susmaq bilmirdi hələ.
Darmadağın edilib
Təslim olsalar belə
Yıxılıb ölmürdülər -
Ağıla gəlmirdilər.
Bizim qələbəmizi,
Şanlı zəfərimizi
Həzm edə bilmirdilər.
Zaman kəlbətin idi,
Qolu zora düşmüşdü.
Çünki "Artsax" mərəzi
Bir köhnə azar kimi,
Bir paslı mismar kimi
Mənfur ermənilərin
İliyinə, qanına,
Sümüyünə, canına
O qədər geyişmişdi,
Onu oradan çəkib
Çıxartmaq çətin idi.
"Kiş!.. Kiş!.." ilə heç zaman
Çıxmaz donuz darıdan ! -
Bu söz yadigar qalıb
Bizə ata-babadan.
Qulağımızda sırğa,
Yadımızdadır hər an .
Elə bu an, bu zaman
Bir səda gəlir haqdan:
- Şair, vaxtımız azdır ;
Tuş gəlməmiş qınağa
Fikrini aydın söylə
Gen gəz söz oynatmaqdan.

**..."Kiş!.. Kiş!.." ilə heç zaman**

Çıxmaz donuz darıdan ! -
Doğrudan da beləymiş ! -
30 il davam edən
Danışıqlar, söhbətlər
Hamısı küy -kələymiş !..
Divan-dərə, haqq nədir?..
Torpaq qaytarmaq nədir?..
Murdar düşmənlərimiz
Şiniyib durmuşdular,
Nıx deyib durmuşdular.
Elə qudurmuşdular
Özlərinə qəhraman,
İgid, cəbhələr yaran
Qoçaq xalq deyirdilər.
Bizə məğmun, cürətsiz,
Cəsarətsiz, taqətsiz,
Qorxaq xalq deyirdilər...
Ancaq düşmənlərimiz
Döyüş meydanlarında
Dəmir yumruğumuzun
Zərbələri altında
Açaq, murdar qanına
Qəltan olandan sonra;
Naçar, əlacsız qalıb
Sarsaq, sərsəm gözləri
Yaşla dolandan sonra
Daldalıqda, batində -
Damda, divar dibində
Zülüm-zülüm ağlayıb ,
İtib-batanlarına
Matəm, hüzn saxlayıb
Aşkarlıqda, zahirdə
Hövl edib bir də, bir də
Sağ yana hürürdülər,
Sol yanı qapırdılar.
Tribunalar qurub,
Əfsanələr uydurub
Nağıllar demək ilə,
Fəryad eləmək ilə
Təsəlli tapırdılar :
- "Dünən ağlatdığımız ,
Diri-diri alova,
Tonqala atdığımız
Adamlar deyil bunlar
Ayrı çinlər, poqonlar,
Ayrı gözlər, qeyzlər,
Ayrı hiddətlər, hirslər,
Ayrı əllər var burda.
Harda görünüb, harda ?!.
Deşmir top mərmisi də ! -
Nəsildəndir, zatdandır -
Sinə də poladdandır
Bu ayrı adamlarda.
İrəvan qan ağlayır:
Tək qalıb təklənmişik,
Qırılıb tükənmişik .
Başımız nələr çəkir?!..
Dünya da bunu görür.
Ancaq "Böyük bacımız"
Bizə xəbər çatdırıb
Təzə tapşırıq verir:
- Ağrıdağ orda qalıb, -
Çətində, darda qalıb.
Nə Qarbağ, nə filan?!..
İndi daha möhtəşəm,
Əzəmətlidir plan.
Daha genişdir meydan.
Daha böyükdür imkan.
Laçında, Kəlbəcərdə,
Şuşada, Ağdərədə,
Ağdam deyilən yerdə,
Daşaltıda, - orada! -
Daha haçan, harada?!..
Gözlərindən o dəhşət,
Qorxu çəkilib məgər?
Xocalı faciyəsi! -
Ağrımır, qövr eləmir?!..
O cür dərin yaranın
Hovu çəkilib məgər?
Rahatlıq tapa bilməz,
Arxayın yata bilməz;
Qalxıb qorxaq əlləri
Silah da tuta bilməz
Sinəsindən vurmuşuq,
İnadını qırmışıq,
Gözlərinin tovunu
Çoxdan almışıq türkün.
İndi bu saat, bu gün
Bizim tərəfimizdə,
Qolumuzun gücüdür,
Yanımızdadır Zaman.
Burnunu ovmaliyiq,
Birbəbir qovmalıyıq, -
Biz Türkün ayağını
Kəsməliyik Qafqazdan!
Qisas zamanı gəlib,
Məqamı, anı gəlib.
Yandan ötüb getməyin,
Fürsəti fövt etməyin.
Uşaq-böyük bilməyin;
Hər gözə sataşanı,
Ayağa dolaşanı
Döğrayın, tikələyin.
Birdəfəlik, biryolluq
Bu türkün "xatasını",
"Şərini", "Bəlasını"
Başımızdan eləyin.
Vicdan nədir?-unudun!..
Çaşmış, həddini aşmış,
Daha da azğınlaşmış
Tarixi düşmənlərin
Qanına şüşə tutun,
Qanı şüşəyə axsın.
Onun bir damcısı da
Torpağa tökülməsin.
Yerlərin bərəkəti
Göylərə çəkilməsin.
Təmizlənək onlardan, -
O natəmiz qanlardan .
Vicdan nədir? –unudun.
Tarixi düşmənlərin
Qanına şüşə tutun,
Qanı şüşəyə axsın.
Onlar çox gecikməsin,
Gözünü açıb baxsın
Bizi yaxşı tanısın,
Anlasın başa düşsün,
Türkün əcdadaları da
Səksənsin məzarında,
Xofa, təlaşa düşsün.
Bizim hüzurumuzda
Zağ-zağ əssin, titrəsin.
"Mütərəqqi" Avropa
Böyük iftixar ilə
Sizə "afərin!"-desin.
Sizi bağrına bassın,
Oxşasın, əzizləsin...
Hələlik, canı budur
Sualımın, sorğumun:
Cumun, Bakıya cumun! -
Çəkinməyin, qorxmayın,
Yubanmayın, amandır.
Yaddaşınızdan silin
Sehrkarı, sehri .
Arxayın olun, bilin,
Dilsiz qoyunun yemi
Arpadır, venəmirdir.
O ayrı adamların
Sinəsinin zirehi
Nə daşdır, nə dəmirdir, -
Çitdəndir, cunadandır.
Qorxub "çit"dən, "cuna"dan
Qaçmaq olmaz meydandan.
Hər əli silahlıdan -
Qaraltıdan, kölgədən
Hürkməyin, xoflanmayın,
Ayaq geri qoymayın.
Qoy düşmən sevinməsin
Ayaqsızıq, əlsizik;
Əsl sahibi bizik
Küləklər şəhərinin,
Xəzər sahillərinin –
O barlı, bərəkətli,
Qızıldan da qiymətli
Daşın, torpağın, qumun.
Cumun, Bakıya cumun!-
Elə ki, Bakımızı
Fəth etdiniz, aldınız
"Urra!" – deyin ucadan.
Bakıda Şaumyana -
"O şanlı qəhramana"
Başı göylərə çatan
Bir heykəl ucaldınız...
...Biz də axmaq deyilik ; -
Qanmaz uşaq deyilik
Biz də çörəyimizi
Qulağımızla deyil.
Ağzımızla yeyirik .
Bu gün bütün dünyaya
Car çəkirik, deyirik,
Zülm, od ayaqlayıb
Bəla çəkib deyirik,
Nalə çəkib deyirik,
Dünyada hamıdan çox
Bizə ürəyi yanan,
Arxamızda dayanan
Öz "süd anamızı"da
Xəbərdar eləyirik:
- Dünən ağlatdığımız,
Diri-diri alova,
Tonqala atdığımız
Adamlar deyil bunlar.
Ayrı çinlər, poqonlar,
Ayrı şərtlər, diktələr
Ayrı nitqlər, hikkələr,
Ayrı dillər var burda.
Belə güc, belə qüdrət ,
Belə cürət, cəsarət
Harda görünüb, harda?
Deşmir top mərmisi də! -
Nəsildəndir, zatdandır -
Sinə də poladdandır
Bu ayrı adamlarda.
Şübhəsiz, bu adamlar
Ayrı yandan gəliblər.
Biz başı batmışların,
Günləri qara gəlib
Bəxtləri yatmışların
Heç xəbəri olmayıb. -
Bəlkə də bu adamlar
Lap bizim yanımızdan:
Elə bu İrəvandan,
Ya da köhnə yurdumuz
Dost Livandan gəliblər?!..
Biz görürük bu xına
Heç o xınadan deyil!
Bu ayrı adamların
Bizə "doğmalığı" var.
Yoxsa, bu qədər qəddar,
Qansız, amansız qatil
Ola bilməzdi onlar
***
Düşüncəmiz yorulub,
Gözlərimiz kor olub
Qaramı basır bizi? -
Heç tanıya bilmirik
Özümüz özümüzü.
Nə deyək zəmanəyə?
Bizim taleyimizi
Yazan belə yazıbdır.
Bəd yuxular görürük ;
Bizim bəd yuxuları
Yozan belə yozubdur:
- O, ayrı adamların -
Onların şikarıyıq!
Ərəsati-məhşəri
Haçan yada salmışdıq?
Dünən o vurhavurda
Çox adamların burda
Biz canını almışdıq!
Əvəzini onlara -
O ayrı adamlara
Birə min qaytarırıq. –
Onların şikarıyıq!
Qartal kimi şığıyıb
Ley kimi gəlir onlar
Səmadan üstümüzə .

*Ardı Səh. 13*

Əvvəli-Səh-12

Başımız bəladadır :
Torpaq çəkir kamına,
Göy durub qəsdimizə.
Naləmizi eşidib ,
Yəqin, fəryadımız da
Ona çatıb, yetişib .
Olsa lap Ərzurumda,
Yubanmasın bir an da
Qoy gəlsin Qara keşiş
Qəbrimizi qazdırsın.
Bu meyitləri yusun,
Geyindirib basdırsın.
Bitib, tükənib daha
Bizim iqtidarımız.
Boğazımız kəndirdə ;
Hanı, hanı, bəs hanı
Tiqran babalarımız?!..
Bəlkə qalxıb məzardan
Bir quru canımızı
Onlar qurtarsın dardan?!...
Müdhiş həyatımızı
Onlar yoluna qoysun?!...
Onlar dua eləsin,
Tanrı bizi qorusun.
Axı: "Vurun!.. Öldürün!..
Parçalayın!.. Dağıdın!..
Qan tökün!.. Qan axıdın!.." -
Onlar bizə demişdi -
Vəsiyyət eləmişdi,
Kitablarda yazmışdı,
Daşlar üstə qazmışdı..."
...Bəli, bu minval ilə
Bu hal, bu əhval ilə
Qəddar düşmənlərimiz
Bizim ağır, möhtəşəm
Dəmir yumruğumuzun
Zərbələri altında
Başlarını itirib,
Zarıyıb, inildəyib
Sayıqlayirdı belə.
Murdar ağızlarına
Gələni deyirdilər. -
Guya düz edirdilər.
Anlamırdılar hələ
Sözün ucundan tutub
Ucuzluğa, heçliyə,
Puçluğa gedirdilər.
Nə var, nə var ortada? -
Fürsət getmişdi bada.
Yüz illik bəyanatlar,
Qərarlar, hesabatlar,
Fərziyyələr, gümanlar,
"Dəqiq", hazır planlar
Başdan ayağa kimi
Xatalı, səhv olmuşdu:
O "Böyük Ermənistan!" -
Yüz illərin xülyası
Yüz minlik ordumuzun
Sücaəti önündə
Yüz yox, heç 44 gün də
Duruş gətirməmişdi -
Əbədi məhv olmuşdu.
...30 il murdar düşmən
Yurdumuzda turp əkdi,
Başımız nələr çəkdi!..
Belə iftira, hədiyan
Insanlıq görməmişdi.
...Bəşər sayıqlığını
Ancaq itirməmişdi.
Bütün dünya görürdü:
Ərzin suallarına,
Əsrin suallarına
Mükəmməl, aydın, dürüst
Ali Baş Komandanım
Özü cavab verirdi.
Rəhbərimin dilindən
Hamı bunu eşitdi
Yer də, Göy də şahiddi:
- Qələbəni qazanan
Vətən oğullarının
İgidliyi, mərdliyi
Qüdrəti, hünəriydi!-
Bu söz başdan, binadan
Ali Baş Komandanın
Dilinin əzbəriydi.
Rəhbərimiz dünyanın
Harasına gedirdi,
Böyük iftixar ilə
Haqqı bəyan edirdi.
Xalqımın qüdrətindən
Bütün dünya xalqları
Xəbərdar olurdular.
Bizi istəməyənlər,
Bu gün də lovğalanıb
Qan-qan deyən düşmənlər
İçəridən burxulub,
Əzilib, ovxalanıb
Tarımar olurdular.
Dərin bir köks ötürüb
"Bu nədir?!" deyirdilər.
Qara dəsmal götürüb
Qara da geyirdilər.
Matəm yaşayırdılar –
Darmadağın olmuşdu
Erməni yalanları,
Erməni böhtanları.
Dünya daha onlara –
Haylara inanmırdı.
Haylar bunu qanmırdı, -
Fitnəkarlıq etməkdən
Yorulub-usanmırdı.
Haylar hələ qanmırdı:
O köhnə körpüləri
Sellər-sular apardı.
Əsr-əsr onların –
Rəzil ermənilərin,
Xaltalı məlunların,
Xatalı məlunların
Ən kəsərli silahı,
Yenməz həyat mənbəyi,
Mənfur istinadgahı
"Məzlum erməni xalqı"
Obrazı, anlayışı –
Məkrli daşnaq daşı
Yaddaşlardan əbədi
Silinirdi, çıxırdı.
Indi onun yerində
Dünyanın nəzərində
Faşistlərdən də betər
"Məğlub işğalçı" vardı.
O köhnə körpüləri
Sellər, sular apardı.
"Məzlum erməni xalqı"
Yaddaşlardan əbədi
Silinirdi, çıxırdı.
Dünya bizə baxırdı. –
Yenidən tanıyırdı
Bizim odlar yurdunu –
Bizim Azərbaycanı.
Dünya nəfəs dərmədən
Müzəffər Komandanı –
Rəhbəri dinləyirdi.
Rəhbər izah edirdi,
Rəhbər nə var deyirdi.
...Qədir bilən xalqımız
Tarix boyu heç kəsin
Haqqını itirməyib;
Nahaqqa arxa durub
Haqdan üz çevirməyib –
Haqqı bada verməyib.
Biz hamımız bilirdik:
Qərarımız doğru, düz,
Fikrimiz qəti idi.
Rəhbərin qətiyyəti
Sarsılmaz iradəsi,
Cəsarəti, cürəti
Bizim zəfərimizin
Ən vacib şərti idi.
O tarixi günlərdə
Düşmən fitvası ilə
Üstümüzə dörd yandan
Leysan kimi yağırdı
Iftira, quru böhtan.
Bütün bu hücumlara –
Sifarişli, amansız
"Qəyyumlu" hücumlara
Sinə gərən qəhrəman,
Rəhbər-O cəsur İnsan,
Vüqarlı, məğrur İnsan
Fərəhlə danışırdı
Dünyanı heyran edən
Ordumuzun gücündən...
...Bu şan-şöhrət, əzəmət,
Qüdrət bizimdir deyə
Sığmırdıq yerə, göyə,
Gözümüz yaşarırdı
Qələbə sevincindən.
Rəhbər izah edirdi,
Rəhbər nə var deyirdi,
Təkrar-təkrar deyirdi:
- Tarixin ən şərəfli
Anlarını yaşayan
Xalqımın, millətimin
Bu azad, xoş günləri,
Toyları, düyünləri
Mənim səadətimdir.
Ruhumun yüksəkliyi,
Qürurum, riqqətimdir.
Sarsılmaz, əbədidir
Orduma, əsgərimə
Hörmətim, ehtiramım,
Etibarım, inamım.
Nə gizlədim, nə danım,
Düşmənimiz çox idi.
Avantüra, zor ilə
Tarix yazanların da,
Balaban, zurna ilə
Bizə nağıl danışan
Köhnə "ozanların"da
Heç xəbəri yox idi:
- Silahımız müasir;
Tarixin axarını
Dəyişdirməyə qadir ;
Atdığımız hər addım
Hesablanmış, nizamlı;
Dövlətimiz çox güclü
Qüdrətli, ehtişamlı,
Əzəmətli olsa da,
Qətiyyətli olsa da
Bu döyüşün, zəfərin
Birinci qəhrəmanı
Azərbaycan zabiti,
Cəsur əsgəri idi.
Bütün qələbələrin
Bünövrəsi, əsası
Onların cəsarəti,
Əzmi, hünəri idi.
Ən keçilməz sədləri,
Bəndləri qırırdılar.
Qranit qayaları
Dəmir yumruğu ilə
Onlar dağıdırdılar.
Ayrı adamlar kimdir?
Zaman Ali hakimdir;
Ağ da bəlli, qara da.
Yüz il bundan sonra da
Bu torpağı ələyin,
Ələk-vələk eləyin
Misqal-misqal yoxlayın. -
Hesabı itirməyin,
Yadınızda saxlayın :
Aslan ruhu, cürəti,
Coşqunluğu, şiddəti -
Bizim qanımızdır O.
Odumuz, atəşimiz,
Həyacanımızdır O.
Bizim torpağımıza –
Öz Qarabağımıza
Öz qanımız tökülüb.
Döğma Vətənimizdə
Öz qanımız bu qədər
Ətirli,təravətli,
Şöhrətli, şərafətli
Çiçək açıb, gül olub .
****
Onlar tək-tək öldülər! -
O ərlər, o igidlər,
O qəhraman şəhidlər
Vətəni azad görüb,
Bəxtiyar, abad görüb
Rahat nəfəs aldılar –
Bir qəlb, bir can oldular,
Hamısı bir-birinə
Doğma əziz, sevimli,
Dost, mehriban oldular -
Ruhi-rəvan oldular.
Razılıq, sevinc saçan
Böyük bir coşqu ilə
Vətənin qarşısında
Min dəfə baş endirib
Halallıq istədilər:
- "Başın sağ olsun, Vətən!
Haqqını halal eylə.
Biz səfər üstündəyik,
Mənzilimiz uzaqdır,
Yol gedirik!"- dedilər -
Halallıq istədilər.
Onlar tək-tək öldülər! -
O ərlər, o igidlər,
O qəhraman şəhidlər
Yer üzündə, dünyada
Çox şər-xata gördülər,
Çox qan-qada gördülər.
Bütün Yer aləmini -
Bizi bəyənmədilər -
Göylərdən gəlmişdilər,
İlahi dərgahına -
Göylərə çəkildilər.
***
Bizim haqq davamızın
Səsi, sorağı çoxdan
Yaradana çatmışdı.
Tanrı Yer aləmini
Səhmana salmaq üçün
Özü əl uzatmışdı.
Bünövrəsi, dayağı
Təməli olmasaydı,
Arxasında həmişə
O qüdrət sahibinin
Öz əli olmasaydı,
Nəhayətsiz, hüdudsuz
Kainatın qoynunda -
O xatalı tünlükdə,
Qan-qadalı tünlükdə
Bizim bu yer kürəmiz –
Həyatdan küskün, incik,
Sapand daşından kiçik
Miskin planetimiz,
Yorğun düşüb ləhləyən,
Əsnəyən, mürgüləyən,
Başı döşünü döyən
Əzgin planetimiz,
Üzgün planetimiz
Necə dinclik tapardı ?
Necə qərar tutardı ?
Bizim qələbəmizdə,
Şanlı zəfərimizə
Yerin, Göyün sahibi
Yaradanın, Xaliqin
Xeyir-duası vardı.
Bunu bizdən də yaxşı
Dünya anlamalıdır.
Dünya ağla gəlib,
Yola, sığala gəlib
Xəlq eləyən qüvvəni,
Haqqı tanımalıdır.
***
Ay şəhid anaları!
Ay şəhid ataları!
Zəfər bayramlarında,
Hamıdan çox sevinin.
Başınızı dik tutun.
Allah eləməsin!...Mən
Tapşırmıram, demirəm
Heç vaxt unudulmayan
İnsanları unudun.
Bizim eldə, obada
İnsanlığı yaşadan
İnsanların həyatda
Təmiz, düz ilqarıdır.
Analar həssas olur:
Bu gün, bu bayram günü
Anaların hamısı
Şəhid analarıdır.
***
...Üfüq alışıb-yanır,
Vətən nura boyanır.
Qələbənin dadını
Duyub yaşamaq üçün
Döz, dur, şəhid anası!
Matəm libası geyib,
Bayatı, ağı deyib
Qapılma qəmə, dərdə.
Bilirəm, bu gün sənə
Dünyanı versələr də
Azdır, şəhid anası!
...Bu yerdə, bu məqamda
Sözü var vicdanın da.
O şəhid balamızın
Xidmətləri yanında
Mənim şeir yazmağım,
Uğurlar qazanmağım –
Karım, kəramətlərim –
Sənətkar xidmətlərim
Bu yurdda, bu ocaqda
Qızıl qanımız hopan
Bu qüdrətli, qocaman,
Bu müqəddəs torpaqda
Qərinələr sovuşub
Dolanıb dəyişsə də
Adamlar nəsil-nəsil
Ümmanda bir damla da
Şərafətində deyil.
Belə ahıl yaşımda :
Artıq köçümü çatıb
İşıqlı dünya ilə
Vidalaşan vaxtımda ;
Yığışıb, hazırlaşıb
Köhnə tanışlar ilə
Halallaşan vaxtımda
Nə yorğunam, nə üzgün.
Qalıq, boynumun yükü
Yoxdur bir başqa işim.
...Əsla sınan deyilsən
Yalvar-yaxar eləyim :
- Məğrur dayan, əyilmə!-
Bu sücaətin üçün,
Bu mətanətin üçün
Mənim sənə bəxşişim,
Hədiyyəm, payım, bu gün
Əzəmət, vüqar dolu,
Təravət, bahar dolu,
Vur-tut beş-altı kəlmə
Sözdür, Şəhid Anası !
...Vətən Müharibəsi...
44 günlük o döyüş, -
O sıçrayış, dirçəliş
Bizim xalqımız üçün
Namus məsələsiydi,
Qeyrət məsələsiydi,
Şərəf məsələsiydi.
Döyüş meydanlarında
"Ya qələbə, ya ölüm!" –
Bizim bu şüarımız
Təmiz əqidələrin,
Vicdanların səsiydi,
Əcdadların səsiydi.
Kainat titrəyirdi –
Yer-Göy uğuldayırdı,
Gur-gur guruldayırdı –
Sabahın məramını
Göy Yerdən soruşurdu.
Başlarını itirib
Sərgərdan qalmışdılar,
Pərişan olmuşdular
Bütün Qərb "dahiləri".
Hesab önə gəlirdi.
Onlar hesab çəkirdi,
Onlar bunu bilirdi.
Bu müqəddəs davada
Sıravi əskər kimi
Türkün hərb dahiləri,
Siyasət dahiləri
Qətiyyət dahiləri
Atatürkün, Heydərin
Ruhu da vuruşurdu.
Şükürlər olsun qisas
Qalmadı qiyamətə,
Gücümüzə inandıq,
Güvəndik, arxalandıq
Biz qələbə qazandıq.
Düşməni təslim etdik ! –
"Bacıları" qarışıq
Susdurduq, heç kim etdik.
O köhnə bayatılar,
Lətifələr, nağıllar,
Zarafatlar qurtardı.
Başımızı tovlayan
"Həzin" uverturalar,
Nəqəratlar qurtardı.
Heç durulmadı sular
Axdı, bulanıq axdı.
Öz dəmir yumruğumuz
Qalxdı, qalxdı, nə qalxdı!-
Düşmənə divan tutdu.
O, haqq nədir bilməyən,
Yola, haqqa gəlməyən,
Baş aparan, inadkar,
Xudbin, azğın, fitnəkar
Qəddar düşmənimizi
Qanına qəltan etdi,
Ağlar qoydu, məlɘtdi,
Öz yerində oturtdu.
Başımızda şimşəklər
Çaxmasaydı vaxtında,
Qılıncımız qınından
Çıxmasaydı vaxtında,
Öz dəmir yumruğumuz
Qalxmasaydı vaxtında
Haqqa tərəfdar olub
Kim qol qoya bilərdi
Bizim tələbimizə?
Kim inana bilərdi
Bizim bu ehtişamlı,
Parlaq qələbəmizə?
Yerimizdə saysaydıq,
Bir an da yubansaydıq
Haqq-hesab itəcəkdi.
Kim səcdə edəcəkdi
Bu qüdrətə, cürətə?!
Qəflət yuxusu qaçdı,
Dünya gözünü açdı
Gücümüz qarşısında
Dünya gəldi heyrətə.
Şükürlər olsun, Ana!
Çatdıq şöhrətə, şana.
Sən mətanət, güc, qüdrət
Ləyaqət aynasısan.
Sən Ölkə Ağbirçəyi,
Sən Vətən Anasısan.
"Şəhid əbədi qalır !" –
**O, NƏCİB, NƏCABƏTLİ, XEYİRXAH, NƏZAKƏTLİ SEYİD XANIMI İLƏ**
Ocağının başında
Bunu RƏHBƏR söylədi.
O, Ali Baş Komandan -
Bütöv Azərbaycanın
Əbədi Qəhrəmanı,
Fəxri, Şöhrəti, Şanı
O, Müzəffər söylədi.
Gözümüzün işığı
O, Münəvvər söylədi, -
Qüdrət, Hünər söylədi, -
Rəhbər müdrikcəsinə
Qətiyyət ilə dedi.
Şərəfli anamıza
Böyük ehtiram ilə,
Fəxarət ilə dedi.
Ancaq açıq, sərt dedi,
Gəldi-gedər dünyanın
Düz gözünün içinə
Düz danışdı, mərd dedi,
Rəhbər açıq, sərt dedi :
-Yaranışdan bu dünya
İnsanları sınamır.
Yaxşı-yaman axtarmır,
Doğma, ögey tanımır.
Eyni əzəmət ilə,
İzzət, hərarət ilə
Hamını qarşılayır.
Başı üstündə durub
Saat, saniyə sayır.
Vədə, vaxt çatan kimi
Hamını yola salır.
Dünya nə yüngülləşir,
Nə də səhmana düşür.
Gözü məhşər yolunda,
Əli qaşında qalır.
Hesabat vermir bizə,
Hesab soruşmur bizdən.
Nə gəlir əlimizdən!? –
Bu, qədərin işidir,
Haqqın göstərişidir.
Köhnə dostu, tanışı
Xoşbəxtliklə yanaşı
Əcəl havada süzən,
Bizi axtaran, gəzən
Alov dilli bir oxsa;
Xoşumuz gəlir-gəlmir? –
Gülüb-oynadıq, yoxsa
Ağladıq həzin-həzin,
Yaradanın, sübhanın
Rəhm eləyən rəhmanın,
O gözə görünməzin
Hökmü, qərarı budur.
... İnsan hər dərdə dözür,
Hər ağrını unudur.
Illər qovur dünyanı,
Yaşa dolur dünya da
Yorğun düşür, tövşüyür,
Naxış-naxış köhnəlir,
Ilmə-ilmə qocalır.
Ancaq şükür, min şükür
Cavanlaşır daha da
Məşurlaşır, ucalır,
Hamımızın qəlbində
Yuva qurur, yurd salır,
Şəhid əbədi qalır.
Şəhid əbədi qalır ! –
Şad- xuraman yaşayır,
Əbədi ömür sürür,
Əbədi xatırlanır ;
Sevilir, əzizlənir,
Diqqət, etibar görür.
Şəhid əbədi qalır ! –
Sabahlar, gələcəklər,
Nurlu, rövşən ürəklər
Ondan güc-qüvvət alır,
Ona hesabat verir.
Günəşdən də gur səsli,
Şiddətli, məğrur səsli,
Dünyanı qarsalayan
Qaynar ruhlu, nəfəsli
Həqiqətimiz üçün,

*Ardı Səh. 14*

**Əvvəli-Səh-13**

Tanrıdan qismətimi,
Şanımız, şövkətimiz,
Ülviyyətimiz üçün,
Qüdsiyyətimiz üçün
Vətən sevgisi ilə
Düz ölümün üstünə
Mərdü-mərdanə gedən,
Canını fəda edən
İgidlərin həyatı,
Əzmi, müqəddəratı ...
Qaranlıq zamanlarda
Vəhşi biyabanlarda
Daş üstündə yazılmış,
Həkk olunmuş, qazılmış
Üzünü yosun örtən,
Toz basan, ovsun örtən
Köhnə hekayət deyil,
Nağıl, rəvayət deyil.
Yaşamaq vüsətini,
Payını, qismətini,
Halallıq şəfqətini,
Eldən, obadan alır,
Yurddan, yuvadan alır.
Öz parlaq adı ilə,
Qaynar həyatı ilə
Şəhid əbədi qalır !
Bəxtiyar, gülər üzü
Sübhün açılan gözü ;
Eşqi, andı, amalı
İşıqlı, aydın, təmiz ;
Bir-birindən vüqarlı,
Mehriban, doğma, əziz
Nəsillər qarşılayıb
Nəsillər yola salır. -
Şəhid əbədi qalır!
-Vəfa, etibar nədir?
Düz söz, düz ilqar nədir?
- Yalları artıq düşür,
Quduz itlər hürüşür.
Əli qoynunda gəzib,
Dərddən canını üzüb
Sən nə axtarırsan, nə?!..
Nə qazana bilərsən
Bu umu-küsü ilə ?
Xeyirxah?!.. Naqis?!.. İblis?!..
Adımız necə düşüb
Tanrının qələminə?!..
Haqq, insanlıq naminə
Qolunu çırmalayıb,
Xeyrə-şərə yarayıb, -
Yük qaldırıb, iş görüb,
Arabir nəfəs dərib
Alnının qaynar, isti
Tərini silə-silə
Insanlarla əl-ələ
Təmiz, üz ağlığıyla,
Ürək açıqlığıyla
Danışıb gülə-gülə
Yaşamaq çətindirmi ?
-Hər döşünə döyən "dost",
"Mənəm! Mənəm!"- deyən "dost"
Yenilməz, mətindirmi?
-Azad vətənimizdə
Nəfsin qulu olmağa,
Yetimin malı ilə
Cibi dolu olmağa
Bu gün ehtiyac varmı?
-Doğru yolunu azan –
Özgəyə quyu qazan
Özü nicat taparmı ?
-Sən fədakar vicdanın
Yenilməz, mətin, cəsur,
Qüdrətli, igid, məğrur;
Şərə, dara düşsə də,
Zindanlara düşsə də
Meydandan çəkilməyən,
Heç rahatlıq bilməyən,
Gecə-gündüz çalışan,
İşi başından aşan
O əməkdar vicdanın,
O əzimkar vicdanın
Tənə yağışlarından,
Leysan qarğışlarından
Qoruna bilirsənmi ?
-Qızğın hərb meydanında
Sən son bir damla qanın
Qəhrəman şöhrətini –
Gücünü, qüdrətini
Zorunu bilirsənmi ?..
...Şəhid əbədi qalır ! –
Bu sorğu-sual ilə,
Yüksək ideal ilə
Sabahı aydın görür –
Nə qan, nə qırğın görür.
Təfsilat, izah verir...
Vətən balalarından –
Vətənin topdağıtmaz
Rəşid qalalarından –
Vətən balalarından
O, imtahan götürür.
Şəhid əbədi qalır ! –
Vətənin xoş günləri
Hamımızdan daha çox
Ona sevinc bəxş edir,
Ona fərəh gətirir,
Ona şərəf gətirir.
Bu yurdda, bu ocaqda,
Qızıl qanımız hopan
Bu qüdrətli, qocaman
Bu müqəddəs torpaqda
Dəyişmir nırxı dünya ;
Fələyin çarxı dünya
Yenə işini görür –
Köhnə işini görür :
Eyni əzəmət ilə
İzzət, hərarət ilə
Nəsillər qarşılayıb
Nəsillər yola salır, -
Şəhid əbədi qalır !..
Şəhid əbədi qalır !-
Həmişə, zaman-zaman
Odur müasirimiz,
Xoşbəxt gələcəyimiz;
Odur darda, çətində
Etibarlı dostumuz,
Arxamız, köməyimiz;
Odur sədaqətimiz,
Təmiz xoş niyyətimiz,
Arzumuz, diləyimiz ;
Odur qüdsiyyətimiz,
Səcdə, şükran yerimiz,
Vüqarlı ürəyimiz ;
Odur cəsarətimiz,
Sarsılmaz iradəmiz,
Dəmir, tunc biləyimiz;
Odur əzəmətimiz,
Düşmən gözü çıxardan
Yerə gəlməyən, Azman,
Gen, enli kürəyimiz ;
Odur rahatlığımız,-
Kəlbəcər yaylağımız,
Öz İsa bulağımız,
Neçə-neçə müqəddəs
Ocağımız, türbəmiz.
Açıq, naz-nemət dolu
Bizim halal süfrəmiz,
Duzumuz, çörəyimiz...
...Sözlərin aydın duru ;
Bütün həyatın boyu
Sinəndə bu qüruru,
Bu işığı, bu nuru
Alnıaçıq, fərəhlə
Gəzdir, ŞƏHİD ANASI !
Nahaq yerə, boş yerə
"Nüfuz"lara, "Güc"lərə
Güvənib, arxalanıb,
Onların məkr dolu
Riyakar vədlərinə
Bel bağlayıb, inanıb
Çox çapıldıq, talandıq...
Doğrandıq, baltalandıq...
Əzildik, tapdalandıq...
Çox tənələr eşidib,
Soyuqlayıb, üşüdüb
Dişimizi sıxmışıq.
Haqq işimiz naminə -
Şərəfimiz naminə
Hər ağrıya, acıya
Qürurla sinə gərib,
Fədakarlıq göstərib
Murdar düşmənimizin
Axırına çıxmışıq.
Bu yol Heydər yoludur!
Ulu Öndər yoludur!
Ürəyimiz doludur.
Xoşdur hər söz, hər avaz
Deyirsən : bu il bir az
Tez ötüb keçdi ayaz. –
Düzdür, şəhid anası!
Günəş salama gəlir,
Torpaq da üzə gülür, -
Yazdır, ŞƏHİD ANASI !

**EPİLOQ**

Nə xəzinə görmüşəm,
Nə rütbə daşımışam.
Əllərimin qabarı,
Alnımın təri ilə,
Zəhmətlə yaşamışam.
Ah-fəryad etməmişəm,
Bəxtimdən küsməmişəm.
Sadə ömür sürmüşəm,
Cah-cəlal gəzməmişəm.
Alicənab dostlara
Çox minnətdar olmuşam.
Onların dar günündə
Çatıb dadına mən də
Arxasında durmuşam,
Yanında var olmuşam.
İnsaf, vicdan sarıdan
Çəkməmişəm bir korluq, -
Etməmişəm nankorluq,
Haqq-say itirməmişəm.
Zamanə ağır, çətin
Sınağa çəkib məni.-
Dayanmışam mərd, mətin.
Belimdə ağır şələ,
Doğmalarımdan belə
Minnət götürməmişəm.
Ürəyim bərk ağrıyıb,
Sinəmi dərd doğrayıb;
Mən irəli çıxmışam,
Gələcəyə baxmışam,
Gözüm yaşla dolmayıb.
Qayğısız yaşamağa, -
Başımı qaşımağa
Heç macalım olmayıb.
O ki qaldı : təkəbbür,
Eqoistlik, təşəxxüs,
Lovğalıq nədir?- biləm!..
Əfv etsin əhli-qələm.
Nəhayət, istəyirəm
Mətləb üstünə gələm:
-Çox düşündüm, gördüm ki,
Məndən başqa heç bir kəs
Bu yükü çəkə bilməz, -
Fərmayışdir, hökmdür!
Bu yük mənim yükümdür ;
Öz çiynimi qaçırıb
Yükümü başqasının
Çiyninə ötürmədim.
İmkanımı əlimdən
Bir quş kimi uçurub
Bir an vaxt itirmədim.
Tarixi qələbəmiz
Mənə qol-qanad verdi,
Dünyada görünməmiş
Sarsılmaz inad verdi.
Qüdrət, hünər müydanı,
Qeyrət yeridir deyə
Sarıldım qələmimə,
Vardım öz aləmimə. –
Bütün nidalarımı,
Ağır nöqtələrimi
Tuncdan, poladdan tökdüm,
Alovdan, oddan çəkdim.
"ZƏFƏR DASTANI"mızı
Tamamladım, bitirdim.
Ürəyim sakitləşdi,
Arxayın nəfəs dərdim.
...Yazdır, Şəhid Anası!
Yazdır, İgid Anası!
"Biz göstərdik kim kimdir!" –
Murdar düşmənimizi
Biz iti qovan kimi
Qovduq torpağımızdan –
Öz Qarabağımızdan.
Gördü Qüdrətimizi,
Aslan cürətimizi
Dünya tanıdı bizi, -
Dünya düşdü səhmana.
Gözlərin aydın, Ana!
İndi bizim başımız
Fərəhdən asimana,
Ulduza, Aya dəyir.
Rəhbərin də gözündə,
Söhbətində, sözündə
Yaz, bahar gülümsəyir.

***Biləsuvar rayonu.***

# "Enerji içkiləri sağlamlıq üçün risklidir"




## EKSPERT AÇIQLADI

***"Gənclər arasında enerji içkilərinin artan istifadəsi sadəcə qısa müddətli "enerji artımı" ilə bitmir". Bu sözləri SİA-ya açıqlamasında qida mühəndisi, nutrisioloq Fərid Səfərov deyib.***

Onun sözlərinə görə, bu içkilərin uzunmüddətli sağlamlıq riskləri həm fiziki, həm də psixoloji baxımdan ciddi ola bilər: "Enerji içkilərindəki yüksək kofein və şəkər miqdarı ürək-damar sisteminə mənfi təsir göstərir. Ürək döyüntüsünü artırır, taxikardiya, aritmiya və yüksək təzyiq riskini yaradır. Uzunmüddətli istifadə ürəyin yükünü artırır və xüsusən də yetkinləşmə mərhələsində olan gənclərdə ürək əzələsini zəiflədə bilər. Bəzi hallarda qəfil ürək tutması hadisələri enerji içkiləri ilə əlaqələndirilir. Kofein mərkəzi sinir sistemini stimullaşdırdığı üçün əsəbilik, yuxusuzluq və diqqət dağınıqlığı yarana bilər. Gənclərdə bu, asılılıq effekti formalaşdırır, yəni orqanizm enerjini təmin etmək üçün bu içkilərə öyrəşir. Uzunmüddətli istifadədə isə gərginlik və depressiv hallar müşahidə olunur. Bu içkilərin tərkibindəki yüksək şəkər miqdarı metabolik proseslərə mənfi təsir edir. Bir qutuda 40–60 qramadək şəkər ola bilər ki, bu da piylənmə, insulin müqaviməti və 2-ci tip şəkərli diabet riskini artırır. Həmçinin hormon balansına təsir edərək, xüsusilə yeniyetmələrdə kortizol (stres hormonu) səviyyəsinin yüksəlməsinə səbəb olur. Kofein və digər stimullaşdırıcı maddələr (taurin, guarana və s.) qaraciyər fermentlərinin fəaliyyətini dəyişə bilər. Uzun müddət və yüksək miqdarda qəbul qaraciyərin zədələnməsi və böyrəklərin filtrasiya funksiyalarının pozulması riskini artırır.

Enerji içkilərini spirtlə qarışdırmaq xüsusilə təhlükəlidir. Kofein spirtin sakitləşdirici təsirini maskalayır və bu, spirt zəhərlənməsi ilə yanaşı, riskli davranışların artmasına gətirib çıxarır. Bu cür içkilər barədə övladlarınıza maarifləndirici məlumatlar verin və onları nəzarətsiz qoymayın. Çünki enerji içkilərinin gənclər arasında yayılmasının əsas səbəblərindən biri valideyn nəzarətsizliyi və məlumat çatışmazlığıdır".

***Günel Fərzəliyeva***



**_Son 30 ildə ilk dəfə olaraq Rusiya Ermənistana məhsullarını birbaşa dəmir yolu ilə ixrac edə bilib. Bütün bu illər ərzində taxıl və digər mallar yük maşını və ya dəniz yolu ilə daşınmalı idi, bu da logistikanı bəzən gözlənilməz və bahalı edirdi. Yeni marşrut təkcə Ermənistanla ticarətin artması üçün deyil, həm də Cənubi Qafqazdakı bütün bazarlara ixrac üçün böyük perspektivlər açır._**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

ANALİZ

# Azərbaycan-Ermənistan nəqliyyat əlaqələrinin bərpası nə vəd edir?








Rusiyadan Azərbaycan ərazisindən tranzit keçməklə 1048 ton 800 kq taxıl yüklü 15 vaqon ötən gün Böyük Kəsik stansiyasına çatdırılıb. Yüklər oradan Gürcüstana, daha sonra isə Ermənistana daşınır.

Həmçinin Qazaxıstan taxılının Azərbaycan üzərindən Ermənistana daşınmasına başlanılıb. Qazaxıstandan göndərilən 1000 tona yaxın taxıl yüklü 15 vaqon noyabrın 5-də Azərbaycana daxil olub. Qatar Biləcəri–Hacıqabul–Böyük Kəsik marşrutu ilə hərəkətini davam etdiribvə yüklər Böyük Kəsik stansiyasından eyni marşrutla yola salınıb. Həm Rusiya, həm də Qazaxıstandan Azərbaycan vasitəsilə Ermənistana yüklərin növbəti partiyalarının göndərilməsi gözlənilir.

İlk göndəriş dəmir yolu operatoru RusAgroTrans-ın 15 taxıl vaqonunda daşınan 1050 ton 3-cü sinif buğdadan ibarət idi. Bu, 30 ildən artıq müddətdə Rusiyadan Ermənistana Azərbaycan və Gürcüstan vasitəsilə və qatarla göndərilən ilk yükdür. Bütün bu onilliklər ərzində Rusiya taxıl və digər malları Gürcüstan limanları vasitəsilə avtomobil və ya dəniz yolu ilə daşımalı olub. Dəmir yolu nəqliyyatı həm Gürcüstandan, həm də Azərbaycandan icazə tələb edirdi.

Dəmir yolu daşımaları Azərbaycan Ermənistana yük daşımalarına qoyulan məhdudiyyətləri aradan qaldırmaq qərarına gəldikdən sonra bərpa edildi. Bu razılaşmalar bu ilin oktyabr ayında Rusiya, Azərbaycan və Ermənistan hökumətlərinin iştirakı ilə əldə edilib. Rusiya Kənd Təsərrüfatı Nazirliyi qeyd edib ki, bu, 1990-cı illərin əvvəllərindən bəri ilk dəfə olaraq Rusiya kənd təsərrüfatı məhsullarının Ermənistana dəmir yolu ilə çatdırılması imkanını açdı.

Ermənistan hazırda ildə təxminən 450.000-500.000 ton taxıl (buğda, arpa və qarğıdalı) idxal edir ki, bunların da demək olar ki, hamısı Rusiyadan gəlir. Kənd Təsərrüfatı Nazirliyi qeyd edir ki, yeni marşrutun inkişafı nəqliyyat xərclərini azaldacaq, təchizatların sabitliyini artıracaq və Cənubi Qafqaz ölkələrinə ixrac həcmini artıracaq.

Əvvəllər əsas taxıl axını Gürcüstan Hərbi Magistral Yolu boyunca Yuxarı Lars keçid məntəqəsindən avtomobil yolu ilə daşınırdı, bir hissəsi isə dəniz yolu ilə Gürcüstan limanlarına göndərilir və sonra yük maşınları ilə Ermənistana daşınırdı. Bu tənzimləmələr hava riskləri, mövsümi sərhəd növbələri və Larsda tez-tez baş verən nəqliyyat gecikmələri, o cümlədən qaya uçqunları və əlavə gömrük yoxlamaları səbəbindən bahalı və qeyri-sabit idi. Bu, çatdırılma müddətini gecikdirirdi və hər ton məhsula görə daşınma xərclərini artırırdı.Yükün qatarla göndərilməsi Ermənistana göndərilən malların nəqliyyat xərclərini əhəmiyyətli dərəcədə - 30-40 faiz azaldır.

Rusiya ilk buğda partiyalarını 15 taxıl vaqonunda daşımağa başladı, lakin Rusiya Nəqliyyat Nazirliyi 2026-cı ilin yanvar ayının sonuna qədər daha 132 dəmir yolu vaqonu daşımağı planlaşdırır. Digər yük kateqoriyalarına da genişlənmə planları var. Bu, birdəfəlik səfərlərdən planlaşdırılmış əməliyyatlara keçid və bahalı yol logistikasının payını azaltmaq deməkdir. Bu, əvvəlki "dəniz + yol" və "Lars üzərindən yol" sxemləri ilə müqayisədə ikiqat qənaət təmin etməlidir, əsasən növbələrin aradan qaldırılması və daşınmaların sayının azaldılması hesabına.

Taxıldan əlavə, Rusiya bu yolla digər ərzaq məhsullarını da tədarük edə biləcək ki, bu da həm bu il, həm də gələn il ölkələr arasında ticarəti artıracaq. Bunlara un və yağlı toxumlar, mineral gübrələr və hopper vaqonlarında ammonium nitrat, günəbaxan yağı, şəkər, tikinti materialları və metal məhsulları, taxta, eləcə də tezxarab olan məshulların və avtomaşınların konteyner daşınması daxil ola bilər.

Ekspertlərin fikrincə, bu, Cənubi Qafqazda magistral dəmir yolu logistikası üçün əsas ticarət məhsullarıdır. Hesab olunur ki, Ermənistanla ticarət logistikasının inkişafı vacibdir, çünki Ermənistan paralel idxalın həyata keçirildiyi və ölkələr arasında ticarətin artmasına təsir etdiyi bir bazardır.

2022-ci ildən sonra Rusiyanın Ermənistanla ticarəti müəssisələrin və insanların köçürülməsi, paralel idxal vasitəsilə yüksək texnologiyalı malların təkrar ixracı səbəbindən kəskin şəkildə artdı və bu da ikitərəfli ticarəti 2024-cü ildə rekord həddə- 11,7-12 milyard dollara çatdırdı. Lakin 2025-ci ildə qiymətli metalların və almaz axınlarının azalması, eləcə də daha sərt nəzarət səbəbindən azalma oldu. Buna görə də, ilin ilk aylarının statistikasında Ermənistanın Rusiyadan idxalında kəskin azalma və Rusiya Federasiyasına ixracda yavaşlama qeydə alınıb. Bu fonda yeni dəmir yolu kanalı daha çox stabilizator və yük dövriyyəsinin hədəflənmiş hərəkətverici qüvvəsi hesab edilir.

Mütəxəssislər ölkələr arasında taxıl ixracından kənara çıxan qarşılıqlı ticarətin artması potensialını qeyd edirlər. Qarşılıqlı ticarətin daha da böyüməsi üçün sahəyə qida və qida sənayesi maddələri, aqrokimyəvi maddələr və gübrələr, tankerlərdə bitum və dizel yanacağı kimi neft məhsulları, dövlət və infrastruktur layihələri üçün metallar və tikinti materialları, istehlak mallarının konteyner daşınması və yığım zavodları üçün komponentlər daxil ola bilər.

Rus iqtisadçıları hesab edirlər ki, əgər Azərbaycandan tranzitlə bağlı siyasi razılaşmalar qorunub saxlanılarsa və müntəzəm cədvəl müəyyən edilərsə, bu dəhliz təkcə Ermənistan üçün deyil, həm də Cənubi Qafqaz bazarlarına ixrac üçün əsas sütun ola bilər və Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan arasında uzunmüddətli əlaqələr yarada bilər.

Hər bir halda Ermənistanın regionun nəqliyyat şəbəkələrinə (Şərq-Qərb, Şimal-Cənub) qoşulması bütün region ölkələri üçün iqtisadi və ticari faydalar gətirə bilər. Bu, bir sıra istiqamətlərdə və sahələrdə daha tez, daha sərfəli daşınma təmin edə bilər. Xüsusən də, Zəngəzur dəhlizinin istifadəyə verilməsindən sonra, Rusiya-Azərbaycan-Ermənistan-İran-Türkiyə marşrutu üzrə dərmiyol və avtomobil nəqliyyatı formalaşa bilər ki, bu da həmin ölkələrin ticarəti üçün daşınma xərclərini xeyli azaldar. Üstəlik təkcə bu ölkələrin deyil, digələri üçün də bu nəqaliyyat şəbəkəsi əverilşlidir. Misal üçün, Qazaxstan, Gürcüstan, Ukrayna kimi ölkələr də bu dəhlizlərdən istifadə edə bilər.

Ümumiyyətlə, Azərbaycanla nəqliyyat yollarının açılması ən çox elə Ermənistana fayda verəcək. Azərbaycan isə Ermənistan vasitəsilə Türkiyəyə daha qısa çıxış əldə edə biləcək. Gələcəkdə Qars-Sədərək dəmiryol xəttinin və Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə Azərbaycandan Türkiyəyə dəmiryolu xətti formalaşmış olacaq. Bu isə ticari və iqtisadi əlaqələrin daha da genişlənməsinə imkan yaradacaq.

***Elçin Bayramlı***

SON SƏHİFƏ

SƏS

8 noyabr
2025-ci il


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# DİQQƏT! Süni intellektdən bu mövzuları soruşmayın




***Müasir dövrdə insanların sağlamlıqla bağlı məlumat əldə etmə imkanları xeyli genişlənib. İnternet, sosial media və süni intellekt əsaslı platformalar vasitəsilə istənilən şəxs müxtəlif xəstəliklər, dərmanlar və müalicə üsulları barədə məlumat toplaya bilir. Lakin bu rahatlıq bəzən yanlış başa düşülür və insanlar həkim məsləhəti olmadan özbaşına müalicəyə başlamağa meyilli olurlar.***



## PROFESSOR AÇIQLADI

Son zamanlarda isə bəzi insanlar səhhətindəki problemlərlə bağlı həkimə getmək əvəzinə ”ChatGPT” ilə məsləhətləşir. İddialara görə isə, ”ChatGPT” səhiyyə sahəsində insanlara yanlış məlumatlar verir. Ümumiyyətlə bu nə dərəcədə düzgündür?

Məsələ ilə bağlı professor Adil Qeybulla SİA-ya açıqlamasında bildirib ki, resept yazmaq, xəstəyə diaqnoz qoymaq və müalicə təyin etmək səlahiyyəti yalnız və yalnız həkimə məxsusdur: ”Bu, tibbin əsas prinsiplərindən biridir və hər bir insan bunu dəqiq şəkildə bilməlidir. Tibbi təyinat və müalicə prosesi xüsusi bilik, təcrübə və məsuliyyət tələb edir. Hər hansı bir dərmanın və ya müalicə üsulunun yanlış istifadəsi insan sağlamlığı üçün ciddi fəsadlara, hətta həyati təhlükəyə səbəb ola bilər. ”ChatGPT” kimi süni intellekt sistemləri və ya digər məlumat mənbələri yalnız ümumi informasiya əldə etmək, maariflənmək və tibbi anlayışlar haqqında ilkin məlumat toplamaq məqsədilə istifadə edilə bilər. Lakin bu platformaların verdiyi hər hansı məsləhət və ya məlumat heç bir halda həkim məsləhətini əvəz etmir və rəsmi tibbi təyinat kimi qəbul edilə bilməz.

Təxirəsalınmaz və ya fövqəladə vəziyyətlərdə ilkin məlumat almaq mümkündür, lakin belə hallarda belə ilk addım mütləq həkimə müraciət etmək olmalıdır. Düzgün diaqnozun qoyulması, uyğun müalicə planının hazırlanması və xəstənin vəziyyətinə nəzarət yalnız tibbi ixtisası və səlahiyyəti olan mütəxəssislərin işidir. Bu səbəbdən insanlar aydın şəkildə dərk etməlidirlər ki, həkim təyinatı olmadan heç bir dərman qəbul etmək, müalicəyə başlamaq və ya başqasına hər hansı tibbi vasitə vermək olmaz. Hər bir şəxs sağlamlığını qorumaq üçün məsuliyyətli davranmalı, istənilən tibbi məsələdə mütləq şəkildə peşəkar həkimə müraciət etməlidir”.

***Arzu Qurbanlı***



## Milyarder idi, indi dünyanın ilk trilyoneri olacaq...

“Tesla” şirkətinin səhmdarları şirkətin baş direktoru İlon Maskın növbəti onillikdə 878 milyard ABŞ dolları məbləğində əmək haqqı paketini təsdiqləyiblər. SİA-nın məlumatına görə, bu onların Maskın “Tesla”nı sadəcə elektromobil istehsalçısı kimi yox, həm də süni intellekt və robot texnologiyası sahəsində aparıcı şirkətə çevirmək planını qəbul etdiklərini göstərir. Bu hadisədən sonra Mask dünyanın ilk trilyoneri ola bilər. “Tesla” şirkətinin səhmləri bundan sonra təxminən iki faiz artıb.

“Tesla” şirkətinin idarə heyəti əmək haqqı paketi təsdiqlənməsə, Maskın istefa verə biləcəyini bildirmişdi. Bir çox investor təxminən 1 trilyon ABŞ dolları dəyərində olan paketin uzunmüddətli perspektivdə səhmdarlara fayda verəcəyini düşünür. Yeni plana əsasən, Mask 10 il ərzində “Tesla” səhmlərindən 878 milyard dollara qədər qazana bilər. Ona 1 trilyon dollara qədər səhm veriləcək, lakin o, bəzi ödənişləri “Tesla”ya geri qaytarmalı olacaq.

# FİFA İlin ən yaxşı futbolçusu adına 11 namizədi açıqladı




FİFA 2025-ci il üçün “İlin ən yaxşı futbolçusu” (The Best) mükafatına namizədlərin siyahısını elan edib. Bu siyahı qurumun rəsmi saytında yayımlanıb. Mükafat uğrunda 11 futbolçu mübarizə aparacaq. Qalib milli komandaların baş məşqçiləri və kapitanları arasında aparılacaq sorğu əsasında müəyyənləşəcək. Namizədlər sırasında bu futbolçular yer alırlar: Usman Dembele (PSJ, Fransa millsi), Əşrəf Hakimi (PSJ, Mərakeş millisi), Harri Keyn (“Bavariya”, İngiltərə millisi), Kilian Mbappe (“Real Madrid”, Fransa millisi), Nunu Mendeş (“PSJ”, Portuqaliya millisi), Koul Palmer (“Çelsi”, İngiltərə millisi), Pedri (“Barselona”, İspaniya millisi), Rafinya (“Barselona”, Braziliya millisi), Məhəmməd Salah (“Liverpul”, Misir millisi), Vitinya (“PSJ”, Portuqaliya millisi), Lamin Yamal (“Barselona”, İspaniya millisi).

Qeyd edək ki, ötən il bu nominasiyanın qalibi “Real Madrid” və Braziliya millisinin üzvü Vinisius Junior olmuşdu.

## TƏBRİK EDİRİK!



FM şirkətinin lideri İlduzə xanım Əzizovanın ad günüdür. Bu münasibətlə onu şirkətin rəhbəri Firuz Məhərrəmov və əməkdaşlardan Dəyanət Bəykişi, Vasif Səltənət, Məhbubə Gülüş, Rəsmiyyə Sahibə, Dilbər Ulduz, Ənvər Həcər və başqaları təbrik edirlər. İlduzə xanıma xoşbəxt, firvan, sağlam ömür, səmərəli yaradıcılıq uğurları arzulayırıq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**